28 yanvar 2022 №7-8 (1881) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Tədris və xidmət bir məkanda



Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qeyd edək ki, Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində məktəb olmadığından uşaqlar yaxın ərazilərdəki tədris müəssisələrinə getmək məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. 2020-2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub. Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazidə istirahət parkı da salınıb.

davamı səh. 2-də

## Azərbaycanın iki dühası Rusiyanın şimal paytaxtında






Rusiyanın Sankt-Peterburq şəhəri son günlər Azərbaycan mədəniyyəti və incəsənəti ilə bağlı əlamətdar tədbir və təqdimatlara ev sahibliyi edir. Ötən həftə Mariinski Teatrının yeni səhnəsində böyük bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə "Min bir gecə" baletinin nümayişləri gerçəkləşmişdi.

Yanvarın 26-da Sankt-Peterburqdakı Mərmər sarayda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Yeddi gözəl" sərgisi açılıb.

Sərginin ekspozisiyası bir neçə tarixi dövrü birləşdirən xalça, zərgərlik, bədii metal, miniatür və teatr-dekorasiya sənətinin, həmçinin klassik musiqi və rəqsin, müasir incəsənətin və deklamasiya layihəsinin sintezindən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov sərginin açılışında çıxış edərək bildirib ki, mədəni əlaqələr xalqların yaxınlaşmasında ən qısa yoldur. "Bizim ölkələri çoxəsrlik dostluq, qardaşlıq, mehriban qonşuluq ənənələri birləşdirir. Biz bu qarşılıqlı münasibətləri ildən-ilə möhkəmləndirməyə çalışırıq. Dövlətlərimizin başçıları nümunəvi qarşılıqlı münasibətləri ilə humanitar sahə də daxil olmaqla bütün istiqamətlərdə əməkdaşlığın gücləndirilməsinə töhfə verirlər", – deyə o vurğulayıb.

Prezidentin köməkçisi xatırladıb ki, Heydər Əliyev Fondunun ilk nümayəndəliklərindən biri məhz Rusiyada yaradılmışdı: "Fond təhsil, səhiyyə, ekologiya sahələri də daxil olmaqla bir çox layihələr həyata keçirib. Lakin bu layihələrin böyük hissəsini mədəniyyət sahəsindəki layihələr təşkil edir".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında möhtəşəm sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, habelə Rus Muzeyinin və Azərbaycan Milli Xalça Muzeyinin rəhbərliyinə təşəkkürünü bildirib.

Rus Muzeyinin baş direktorunun müavini vəzifəsini icra edən Qriqori Qoldovski deyib ki, sərgidə tətbiqi incəsənət əsərləri, videoinstalyasiyalar, nadir miniatürlər, toy bəzəkləri və başqa eksponatlar təqdim edilir. Bu sərgi Nizami Gəncəvi dövründən və onun yaradıcılığının xüsusiyyətlərindən xəbər verən Şərq mədəniyyətinin orijinal rəngarəngliyini göstərir.

davamı səh. 2-də

## Gənclər Günü münasibətilə silsilə tədbirlər keçiriləcək




Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında xüsusi önəm kəsb edir. Ulu öndərin 1997-ci ildə imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilib. Hər il bu əlamətdar gün silsilə mədəniyyət və incəsənət layihələri ilə də qeyd olunur.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-4 fevral tarixində "Yeni gənclik" adlı konsertlər keçiriləcək.

Fevralın 2-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin (bədii rəhbər və baş dirijor – Xalq artisti Fəxrəddin Kərimov) müşayiəti ilə "Gənclərə dəstək" layihəsi iştirakçılarının konserti, Azərbaycan Dövlət Mahnı Teatrında isə gənc caz ifaçılarının "Gaudeamus Jazz" adlı konserti olacaq.

davamı səh. 2-də

## Ölkəmiz 53-cü Qahirə Beynəlxalq Kitab Sərgisində təmsil olunur

Yanvarın 26-da Misir Ərəb Respublikasının Qahirə şəhərində 53-cü Beynəlxalq Kitab Sərgisinin açılışı olub. Sərgidə ölkəmiz də təmsil olunur.

Açılış mərasimində Misir Ərəb Respublikasının Baş naziri Mustafa Mədbuli iştirak edib. O, çıxış edərək sərginin işinə uğurlar arzulayıb.

Tədbirdə Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, şöbənin məsləhətçisi Kamran Musayev, habelə Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı Səfirliyinin nümayəndələri Nicat Nemətov və Ramiz Vəliyev iştirak ediblər.

Sərgidə qurulan Azərbaycan stendində ölkəmizlə bağlı müxtəlif mövzuda kitablar, tarix və mədəniyyətimizi, ədəbiyyat və incəsənətimizi tanıdan nəşrlər yer alıb.




Səfər çərçivəsində Mədəniyyət Nazirliyinin nümayəndələri Akif Marifli və Kamran Musayev Misir-Azərbaycan Dostluq Cəmiyyətini ziyarət edib. Cəmiyyətin sədri Seymur Nəsirov fəaliyyətləri, o cümlədən Azərbaycan mədəni irsinin təbliği və tanıdılması istiqamətində gördükləri işlərdən bəhs edib.

51 ölkənin təmsil olunduğu 53-cü Qahirə Beynəlxalq Kitab Sərgisi 13 gün davam edəcək və fevralın 7-də başa çatacaq.

## Holokost qurbanlarının xatirəsi anılıb

Yanvarın 27-də ADA Universitetində Holokost qurbanlarının beynəlxalq anım günü ilə əlaqədar "Bəşəriyyəti qorumaq üçün antisemitizm, nifrət nitqi, ksenofobiya və irqçiliklə mübarizə" adlı tədbir keçirilib.

səh. 2

## "Şuşa İli"ndən "Şuşa Əsri"nə...




Çiçəklərin rəqs etdiyini görən olubmu? Ümumiyyətlə, çiçəklər rəqs edə bilirmi? Fikrimcə, yer üzündə bircə çiçək var ki, o da ömründə elə bircə dəfə rəqs edib. Kim bilir, bəlkə nəğmə də oxuyub. Sadəcə, o elə astadan oxuyub ki, kimsə eşitməyib. Yaxud da onun nəğməsini hər insanın eşitməsi mümkün deyil...

Bu o çiçəkdir ki, 2021-ci ilin may ayında Şuşada öz adı ilə şərəflənən festivalda elə məsud olub ki, deyəsən, saralıb-solmağı da "unudubmuş". Solmağa başlayanda öz azadlıq nəğməsini Cıdır düzünün altındakı qayalara – əfsanəvi Azərbaycan əsgərinə dünyanın ən hamar yolu kimi görünən o keçilməz sıldırımlara – əmanət edib. Deyib ki, bu əbədi nəğməni zümzümə edin, may ayında yenidən estafeti sizdən təhvil alacağam. Sıldırım qayalar da "sinəmiz üstə" deyərək ifaya başlayıblar...

30 illik fasilədən sonra bu günlərdə ilk dəfə marşrut avtobusu ilə 270 yaşlı şəhərimizə gedən bəxtəvər şuşalı və Şuşa sevdalılar bu yurdun təbii qalası, istehkamı olan o qayalara yaxınlaşanda maşından enib xarıbülbülün əmanət nəğməsinə də qulaq versinlər. Hərbçilərimizin bənzərsiz şücaətinin tərənnümü, həm də xarıbülbülün vüsalının əks-sədası olan bu nəğməni eşidə bilənlərin xoş halına...

davamı səh. 4-də




## Moskvadakı musiqi folkloru sərgisində ölkəmiz də iştirak edib

2022-ci il Müstəqil Dövlətlər Birliyində (MDB) "Xalq yaradıcılığı və mədəni irs ili" elan edilib. Bu münasibətlə Moskvada keçirilən "Birlik ölkələri xalqlarının musiqi folkloru" adlı sərgidə Azərbaycan da təmsil olunub.

səh. 8

## "Bir cənub şəhərində" rəqəmsal formatda yenilənib




C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında 1969-cu ildə istehsal edilən "Bir cənub şəhərində" bədii filmi rəqəmsal formatda bərpa olunub. Filmin bərpası "Balans" Milli Rəqəmsal Bərpa Studiyası tərəfindən həyata keçirilib.

Yanvarın 27-də Nizami Kino Mərkəzində "Bir cənub şəhərində"nin yenilənmiş versiyasının təqdimatı olub.

Rüstəm İbrahimbəyovun ssenarisi əsasında rejissor Eldar Quliyevin quruluş verdiyi filmdə əsas rollarda Həsən Məmmədov, Eldəniz Zeynalov, Hacımurad Yegizarov, Süsən Məcidova, Almaz Əsgərova və başqaları çəkiliblər.

## "Şəhərgah" yaşayış yerinin əhatəli tədqiqata ehtiyacı var

Azərbaycan ərazisində "Şəhərgah" adı ilə tanınan bir neçə Orta əsr yaşayış yeri mövcuddur. Onlardan biri Kürdəmir rayonunun Ərəbqubalı kəndi yaxınlığında yerləşir. Keçən əsrin 70-ci illərində şoranlaşmanın qarşısını almaq məqsədilə meliorativ tədbirlər görülərkən və pambıq əkini üçün sahələr şumlanarkən kənd ərazisində çoxsaylı maddi-mədəniyyət nümunələri üzə çıxıb.

Dövlət qeydiyyatında olan arxeoloji abidə hazırda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Salyan Regional İdarəsinin əməkdaşları tərəfindən qorunur. Lakin ərazi əhaliyə verilmiş pay torpaqlarına düşdüyünə görə mühafizə işində müəyyən çətinliklər var. İdarənin əməkdaşları müntəzəm olaraq əhali ilə görüşlər keçirir, məlumatlandırma işləri aparırlar.

davamı səh. 6-da

## "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərinin yubileyi



səh. 5

## Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2022-ci ildə nəşr olunacaq kitablar müəyyənləşib

səh. 2

## Xalq artisti Ağdaşda tamaşa hazırlayır



səh. 5

## 2022-Cİ İLİN NƏŞRLƏRİ

## Mədəniyyət Nazirliyinin dəstəyi ilə çap olunacaq kitablar müəyyənləşib

Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların fondu üçün nazirliyin sifarişi ilə çap olunacaq və satın alınacaq nəşrlərə dair meyarların müəyyənləşdirilməsi, müvafiq sahə üzrə şəffaf və effektiv iş mexanizminin təmin edilməsi məqsədilə 1 aprel 2021-ci il tarixində Nəşr planının tərtibi və nəşriyyat məhsullarının satınalınması üzrə Komissiya yaradılıb. Komissiya mədəniyyət, elm, ədəbiyyat, təhsil və digər aidiyyəti sahələr üzrə mütəxəssislərdən ibarət tərkibdə təşkil olunub.

Mədəniyyət Nazirliyinə 2021-ci il ərzində təqdim edilən 43 adda nəşr layihəsi komissiyanın üzvləri tərəfindən baxılaraq qiymətləndirilib. Komissiyanın qərarına əsasən, 29 adda kitabın nəşr planına daxil edilməsi məqsədəuyğun sayılıb. Onların arasında "Şuşanın kitab abidəsi", "Nizami və müasirləri", "Nizami və dünya ədəbiyyatı", "Nizami obrazları xalçalarda", "Əbdürrəhimbəy Haqverdiyev – 150", "Azərbaycan dilinin frazeologiya lüğəti" (2 cilddə) və s. nəşr layihələri var. Nəşr planına daxil edilən kitabların cari il ərzində nəşri başa çatdırılacaq.

Eyni zamanda 21 iyun 2021-ci il tarixində kütləvi informasiya vasitələrində "Nəşrlərin satınalınması müsabiqəsi" haqqında elanlar yerləşdirilib, müsabiqə üçün nəşr məhsullarının qəbulu 22 iyul 2021-ci il tarixinədək davam edib. Müəlliflər və müəlliflik hüququ sahibləri tərəfindən müsabiqəyə təqdim olunan kitablar komissiya tərəfindən qiymətləndirilib. Kitabxana fondlarının oxucuların tələbatına uyğun komplektləşdirilməsi məqsədilə, komissiyanın seçiminə əsasən, Mədəniyyət Nazirliyi müsabiqəyə təqdim olunan nəşrlər arasından 233 adda kitabdan 14 755 nüsxənin satınalınmasını 2021-ci ilin son rübündə həyata keçirib. Kitablar Respublika Kitabxana Kollektoruna təhvil verilib, cari ildə bölgüsü başa çatdırılacaq.

Nəşr planının tərtibi və nəşriyyat məhsullarının satınalınması üzrə Komissiyanın fəaliyyətinə dair meyarlara əsasən, komissiya ötən il üçün işini yekunlaşdırıb və tərkibi dekabr ayında buraxılıb. Komissiyanın yeni tərkibi yaxın günlərdə təsdiq olunacaq və qaydalara əsasən, şəffaflığın qorunması məqsədilə yeni tərkib haqqında məlumat cari ilin sonuna qədər konfidensial saxlanacaq.

Komissiyanın ötən ildə tərkibi və Mədəniyyət Nazirliyinin 2022-ci il üçün nəşr planı ilə nazirliyin saytında bu barədə yayılan xəbərdə müvafiq linklərdə tanış olmaq olar.

## Yerlərdəki mədəniyyət müəssisələrinə yeni təyinatlar

Mingəçevir Dövlət Dram Teatrına yeni baş rejissor təyinatı olub. Mədəniyyət naziri Anar Kərimovun imzaladığı müvafiq əmrə əsasən, Vüsal Mehrəliyev teatrın baş rejissoru vəzifəsinə təyin edilib. V.Mehrəliyev yanvarın 27-də teatrın kollektivinə təqdim edilib.

Nazirliyin Gəncə Regional Mədəniyyət İdarəsinə baş məsləhətçi – Kəlbəcər rayonu üzrə nümayəndə təyin edilib. Nazir Anar Kərimovun əmri ilə bu vəzifəyə Xaliq Muxtarov təyinat alıb.

## Gənclər Günü münasibətilə silsilə tədbirlər keçiriləcək

*əvvəli səh. 1-də*

Fevralın 3-də Beynəlxalq Muğam Mərkəzində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Detaşe" violinoçilər ansamblının konserti (ansamblın rəhbəri – Xalq artisti Zəhra Quliyeva), 4 fevral tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti (dirijor – Mustafa Mehmandarov, solist-pianoçu, Prezident təqaüdçüsü Vüsalə Babayeva) keçiriləcək.

***

Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə fevralın 1-də Heydər Əliyev Sarayında "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində Gənclər Gününə həsr olunmuş "AXIN" adlı sərgi keçiriləcək.

Layihənin məqsədi gənclərin cəmiyyətdəki fəallığının təmin edilməsi, istedad və bacarıqlarının üzə çıxarılması, mədəni tədbir və layihələrdə iştiraklarının dəstəklənməsi, bədii-estetik zövqünün formalaşdırılmasıdır. Sərginin ekspozisiyasında 40-a yaxın gənc rəssamın əsərləri yer alacaq.

Fevralın 2-də İstiqlal Muzeyində "Qələbə ruhlu Azərbaycan gəncliyi" adlı tədbir təşkil olunacaq. Tədbirdə məruzələr dinləniləcək, musiqili proqram təqdim ediləcək.

## Respublika Gənclər Kitabxanasında "Şuşa İli"nin açılışı

Yanvarın 27-də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Qarabağın tacı. Şuşa – 270" adlı kitab sərgisi açılıb. Sərgidə Azərbaycan, türk, rus, ingilis dillərində kitablar yer alıb.



Sərgi Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi haqqında sərəncamına əsasən kitabxananın tədbirlər planında yer alıb.

Kitabxananın direktoru Aslan Cəfərov tədbirdə "Şuşa. Şuşanın qədim tarixi, görkəmli şəxsiyyətləri, mədəniyyəti və incəsənəti" mövzusunda çıxış edib.

Metodika-biblioqrafiya şöbəsinin müdiri Tamella Məmmədova Azərbaycan və rus dillərində tərtib etdiyi "Şuşa" kartotekası, kartotekanın tərkibi haqqında məlumat verib.

Bildirilib ki, kitabxana il ərzində tədbirlər planında nəzərdə tutulan tədbirlərin icrasını davam etdirəcək.

# Tədris və xidmət bir məkanda

### Kompleksdə orta məktəb, uşaq bağçası, tibb və poçt məntəqələri var

*əvvəli səh. 1-də*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi hazırlıq və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib.

Bağça ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yarадılıb. Uşaq bağçası mebel və avadanlıqlarla təchiz edilib, həyətyanı ərazidə oyun və idman meydançası salınıb.

Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi də inşa edilib.



Qeyd edək ki, elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana – yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu dövlət başçısının konseptual təhsil strategiyasına töhfə verir.

# Azərbaycanın iki dühası Rusiyanın şimal paytaxtında

### Sankt-Peterburqda Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş sərgi açılıb, Üzeyir Hacıbəylinin abidəsinin təməl daşı qoyulub

*əvvəli səh. 1-də*

Nizami poeziyası əsrlər boyu bir çox sənətkarların yaradıcılığına təsir edib. Klassik nümunəyə çevrilən diqqətəlayiq əsərlərdən biri də görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletidir. Balet Nizami "Xəmsə"sinin eyniadlı poeması əsasında yazılıb. Bu il baletin ilk tamaşasının 70 ili tamam olur.

Bu iki – ədəbi və musiqi-xoreoqrafik mənbə əsasında sərginin ekspozisiyasında dekorativ-tətbiqi incəsənətin qiymətli eksponatlarının nümayişi üçün xüsusi mühit yaradılıb. Azərbaycanlı konseptualist-rəssam Rəşad Ələkbərovun "kölgələrdən rəsmlər" metodu ilə XVI əsrə aid Təbriz miniatürü əsasında yaratdığı "Kitab oxuyan gənc" adlı miniatür instalyasiyası bu mühitə giriş kimi xidmət edir.

Layihənin konsepsiyası vizual və səsli obrazların vahid qavrayışını nəzərdə tutur. Videoinstalyasiyalar sayəsində tamaşaçının gözləri qarşısında cərəyan edən hadisələrdə şəxsən iştirak etməsi effekti yaranır. Məsələn, qədim əlyazma kitabların təsvir edildiyi videoinstalyasiyalarda miniatürlərin personajları sanki canlanır, tamaşaçını öz sehrli dünyalarına dəvət edir. Tamaşaçı bu canlanmış kitabı vərəqlədikcə, dəbdəbəli saray binaları arasında gəzişdikcə balet məkanına düşür: Kainatın ucsuz-bucaqsız məkanlarından peyda olan rəqqasə-balerinalar onu əhatə edir.

Heydər Əliyev Fondu və İCOM-un Azərbaycan Milli Komitəsi tərəfindən təşkil edilmiş "Nizami: dildən-dilə" beynəlxalq onlayn-deklamasiya layihəsinin videoçarxı sərginin interaktiv davamıdır. Bu hissədə Azərbaycan, Rusiya, Özbəkistan, Qazaxıstan və Qırğızıstanı təmsil edən 150-dən çox məşhur incəsənət və mədəniyyət xadimi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından fraqmentləri estafet prinsipi ilə deklamasiya edirlər.



Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil edilmiş "Yeddi gözəl" sərgisinin ekspozisiyasında Heydər Əliyev Fondunun, Azərbaycan Milli Xalça Muzeyinin və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları daxildir.

Sərgi mayın 9-na qədər davam edəcək.

Abidə şəhərdəki Bəstəkarlar küçəsində Üzeyir Hacıbəylinin adını daşıyan bağçada Heydər Əliyev Fondunun və Sankt-Peterburq Hökumətinin dəstəyi ilə qoyulacaq.

Təməl daşının qoyulması mərasimində Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, səfir Polad Bülbüloğlu, Sankt-Peterburqun vitse-qubernatoru Anatoli Poveliy, şəhər Qanunvericilik Məclisi sədrinin müavini Marina Şişkina, Vıborq rayonu administrasiyası başçısının müavini Arina Artyomova, Sankt-Peterburqdakı Azərbaycan diasporunun sədri Vaqif Məmişov və digər fəxri qonaqlar iştirak ediblər.

Təbrik sözlərindən sonra mərasim iştirakçıları təməl daşının önünə tər çiçəklər qoyublar.





Sankt-Peterburqda, həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin abidəsinin təməl daşının qoyulması mərasimi keçirilib.

Qeyd edək ki, Üzeyir Hacıbəylinin abidəsinin müəllifi heykəltəraş, Rusiya Rəssamlıq Akademiyasının akademiki Aydın Zeynalov olacaq.

# Bakıda Holokost qurbanlarının xatirəsi anılıb

Yanvarın 27-də ADA Universitetində Holokost qurbanlarının beynəlxalq anım günü ilə əlaqədar "Bəşəriyyəti qorumaq üçün antisemitizm, nifrət nitqi, ksenofobiya və irqçiliklə mübarizə" adlı tədbir keçirilib.

BMT-nin Azərbaycan Nümayəndəliyi, İsrailin, Niderlandın ölkəmizdəki səfirliklərinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən tədbirdə diplomatlar, Milli Məclisin deputatları, rəsmilər, digər qonaqlar iştirak ediblər.

Tədbirin açılışında BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti təqdim olunub.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Vladanka Andreeva açılış nitqində bu gün də dünyada ksenofobiyanın davam etdiyini bildirərək, keçmişdə baş vermiş hadisələrin təkrarlanmaması üçün hər kəsi Holokost qurbanlarını, həmin dəhşətlərlə bağlı həqiqətləri unutmamağa və yeni nəslə çatdırmağa çağırıb. O, Azərbaycanda Holokost qurbanlarının xatirəsinin yad edilməsinə, həmçinin ölkəmizin bu cür əməllərə və antisemitizmə qarşı mübarizə istiqamətində səylərini vurğulayıb. Azərbaycanın Birləşmiş Təşkilatı Millətlər Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna, eləcə də ənənəvi olaraq keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etdiyini bildirən Vladanka Andreeva ölkəmizin hər zaman mədəniyyətlərarası dialoq və dini tolerantlığa önəm verdiyini qeyd edib.

Tədbirdə çıxış edən İsrailin Azərbaycandakı səfiri Corc Dik yanvarın 20-də BMT-nin Baş Assambleyasında qəbul olunmuş Holokostun inkarı ilə bağlı qətnaməni dəstəklədiyinə görə Azərbaycana minnətdarlığını bildirib. Səfir bu günün həm də Holokostla mübarizə aparmış bütün şəxslərə, o cümlədən azərbaycanlılara həsr olunduğunu vurğulayıb.

BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev tədbirin əhəmiyyətindən bəhs edərək keçmişdə baş verən bu kimi dəhşətli hadisələrin gələcəkdə təkrarlanmasının qarşısının alınmasında tarixi yaddaşın mühüm rol oynadığını deyib. O, həmçinin BMTM tərəfindən nəşr olunan, ermənilərin Azərbaycana qarşı yeritdiyi düşmənçilik siyasətindən bəhs edən "Ermənistanda Azərbaycanafobiya" adlı hesabatı da diqqətə çatdırıb.



Niderlandın Azərbaycandakı səfiri Paulin Eizema bu önəmli tədbirin Bakıda keçirilməsinə görə öz təşəkkürünü bildirib. Səfir yanvarın 24-dən 30-dək Holokost qurbanlarının beynəlxalq anım günü münasibətilə BMT-nin Azərbaycandakı Nümayəndəliyinin, İsrailin və Niderlandın Azərbaycandakı səfirliklərinin birgə sosial media kampaniyası keçirdiyini vurğulayıb.

Holokost faciəsindən qurtulmuş Azərbaycan vətəndaşı Lev Zaxaroviç Şvarts bu dəhşətli hadisə ilə bağlı xatirələrini bölüşüb. Əslən Ukraynadan olan, hazırda Bakıda yaşayan Şvarts nasist Almaniyasının tamamilə yox etdiyi 3 min nəfərdən ibarət yəhudi icmasının hekayəsini danışıb. O qeyd edib ki, ailəsi Holokost dəhşəti ilə üzləşsə də, özü möcüzə nəticəsində ölümdən xilas ola bilib.

Daha sonra panel müzakirəsində antisemitizm, ksenofobiya və irqçilik meyillərinin törətdiyi təhlükələrə qarşı mübarizə tədbirlərinə dair fikir mübadiləsi aparılıb.

# Nizami Gəncəvi irsinin təbliğində töhfələrə görə

## "Azercell"in prezidentinə "Nizami Gəncəvi – 880" xatirə nişanı təqdim edilib

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev yanvarın 25-də "Azercell" MMC-nin prezidenti Zərinə Zeynalova ilə görüş keçirib. Görüş zamanı Elnur Əliyev "Azercell"in 2021-ci il ərzində dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığına xüsusi yanaşmasına görə şirkətin prezidentinə təşəkkürünü bildirib.

2021-ci ildə "Azercell"in dəstəyi ilə Nizami Gəncəvinin əsərlərindən seçilmiş 100-dən çox fəlsəfi və lirik məzmunlu parça audiokitab formatında tərtib edilib. Şeirlər Azərbaycan, rus, ingilis, fransız və türk dillərində qədim simli musiqi alətlərinin müşayiəti altında səsləndirilib. Orijinal fon musiqiləri ilə təqdim olunan audiomateriallar "Azercell"in eksklüziv şəkildə təqdim etdiyi beynəlxalq "Bookmate" əlavəsinə yüklənilib.

Həmçinin şirkət tərəfindən Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş xüsusi əlifba dizayn olunub. Əlifba dahi şairin zəngin irsinin öyrənilməsinə və təbliğinə xidmət edir.



Maraqlı üslubda hazırlanmış əlifbanın hərfləri dahi Nizaminin "Xəmsə"sinə daxil olan poemaların qəhrəmanlarını, bu əsərlərdəki məşhur obrazları və şairin həyatında xüsusi rolu olmuş insanları əks etdirir. Məsələn, "A" hərfi şairin ilk həyat yoldaşı, qıpçaq gözəli Afaqı, "B" hərfi "Yeddi gözəl" poemasından Bəhram şahı, "F" hərfi Fitnəni, "İ" hərfi qüdrətli sərkərdə İskəndəri tərənnüm edir. Hərflərin hər biri adları çəkilən obrazlara uyğun miniatürlərlə bəzədilib.

Görüşdə Elnur Əliyev diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin "Nizami ili" elan edilməsi dövlətimizin Azərbaycan xalqının mədəniyyətinə, milli kimliyinə sadiqliyinin sübutudur. Mədəniyyət nazirinin birinci müavini "Nizami ili" çərçivəsində ölkəmizdə və xaricdə reallaşan layihələrdən söz açıb. Vurğulayıb ki, xalqın ən böyük sərvətlərindən biri onun milli-mənəvi dəyərlərinin, mədəniyyətinin formalaşmasında mühüm rol oynayan dahi şəxsiyyətləri, tanınmış mütəfəkkirləridir.

Daha sonra Elnur Əliyev Mədəniyyət Nazirliyinin dahi şairin yubileyi münasibətilə təsis etdiyi "Nizami Gəncəvi – 880" xatirə nişanını "Azercell" şirkətinin prezidenti Zərinə Zeynalovaya təqdim edib.

# "Müasir audiovizual baxış" mükafatı təqdim edilib



Mədəniyyət Nazirliyinin dəstəyi ilə hər həftənin şənbə və bazar günləri "Avto FM"də (107.7) yayımlanan "AzerNyuMedia" şirkətinin "Cinema Radio" kanalının "Müasir audiovizual baxış" mükafatının sayca üçüncü təqdimatı keçirilib.

Yanvarın 26-da "Cinema Plus" kinoteatrlar şəbəkəsinin "Gənclik Mall"da yerləşən kinoteatrında "Azman Holdinq"in dəstəyi ilə təşkil edilən tədbirin aparıcısı, aktyor Emin Nəsirli "Cinema Radio" kanalı və mükafat haqqında məlumat verib.

Mərasimdə çıxış edənlər Mədəniyyət Nazirliyinin sektor müdiri Rüfət Əliyev, "PMG Group" şirkətinin rəhbəri Cavid Nemətzadə, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev "Cinema Radio" kanalının formatı və layihənin əhəmiyyətindən danışıblar.

Sonra layihənin rəhbəri, "AzerNyuMedia" şirkətinin icraçı direktoru Kamran Qasımov və kanalın aparıcısı RJ Yaqut builki mükafatın sahibini elan ediblər. Mükafat 2021-ci ilin audiovizual yekunlarına əsasən aktyor, ssenarist, aparıcı Azər Aydəmirə təqdim olunub. Mərasimdə Əməkdar artist Xəyyam Mustafazadə "Nizami" və "Odlar yurdu" filmlərindən canlı soundtracklar ifa edib.

# Zəfər Muzeyinin fondu üçün

## 6 mindən çox eksponat toplanıb

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Bakı şəhərində yaradılacaq Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi fondunun təşkili üçün lazımi materialların toplanılması davam etdirilir.

Ötən ilin yanvar ayından başlayaraq muzeyin fondu üçün 6 mindən çox eksponat toplanıb. Vətən müharibəsi şəhidlərinə və müharibə iştirakçılarına məxsus şəxsi əşyalar, sənədlər, o cümlədən işğaldan azad edilən ərazilərə aid olan maddi mədəniyyət nümunələri, xəritələr, gerblər və digər əşyalar həm vətəndaşlar, həm də dövlət qurumları tərəfindən Azərbaycan İstiqlal Muzeyinə təhvil verilir.

Xatırladaq ki, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkə başçısı tərəfindən 2020-ci il 3 dekabr tarixində Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması haqqında sərəncam imzalanıb. Sərəncamda Mədəniyyət Nazirliyinə Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə memorial kompleksin və muzeyin yeri və layihələndirilməsi ilə bağlı təkliflərini hazırlayıb Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

# Muzey əşyalarının bərpası

## Elmi bərpa şurasının toplantısı keçirilib

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi Elmi bərpa şurasının növbəti toplantısı keçirilib. Mərkəzin direktoru Zərifə Məlikovanın iştirakı ilə gerçəkləşən iclasda Qrafika və tətbiqi incəsənət şöbəsinin işi müzakirə edilib.



Toplantıda Abdulla Şaiqin Mənzil-Muzeyi və Səməd Vurğunun Ev-Muzeyindən mərkəzə daxil olan eksponatların bərpadan əvvəlki vəziyyətlərinə və bərpa zamanı görülən işlərin nəticələrinə baxış keçirilib.

Sonra Azərbaycan Milli İncəsənət Muzeyindən bərpa məqsədilə Elmi Bərpa Mərkəzinə daxil olan eksponatlar üzərində görüləcək işlər haqqında müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

# Yubilyar alim və mətbuat xadimi ilə görüş

Yanvarın 27-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində Bakı Dövlət Universiteti Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor, mətbuat xadimi Cahangir Məmmədli ilə görüş keçirilib.



Professor Cahangir Məmmədli agentliyin fəaliyyətini, o cümlədən "Media haqqında" qanun layihəsinin ictimai müzakirələrini yaxından izlədiyini bildirib. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bu il gerçəkləşdiriləcək yeni layihələr və "Media haqqında" qanundan irəli gələn məsələlər barədə ətraflı bəhs edib.

Sonda Əhməd İsmayılov 80 illik yubileyi münasibətilə Cahangir Məmmədlini təbrik edib.

# "Zəhmət ilə gələn zinət..."

## Hacı Zeynalabdin Tağıyev haqqında interaktiv dərs

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Zəhmət ilə gələn zinət. Dərsimiz – Hacı Zeynalabdin" adlı interaktiv dərslərə start verilib.

Muzeydən bildiriblər ki, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyəti haqqında əsaslı bilgiləri paylaşmaq və gənc nəslə milli-mənəvi dəyərləri aşılamaq məqsədilə burada mütəmadi olaraq dərslər keçirilir. Vaxtilə böyük mesenatın evi olmuş tarixi binada Milli Azərbaycan Tarixi Muzeyinin nəzdində "H.Z.Tağıyev klubu" da fəaliyyət göstərir.

Buradakı H.Z.Tağıyevin ev-muzeyində keçirilən interaktiv dərsdə Bakı İstiqlal liseyinin şagirdləri iştirak ediblər.

Dərsin birinci hissəsində muzeyin Bərpa laboratoriyasının müdiri, dosent Afət Rüstəmbəyova Tağıyevin



həyat və fəaliyyətindən bəhs edib. Sonra H.Z.Tağıyevin ev-muzeyinin arxitekturası haqqında şagirdlərə ətraflı məlumat verilib. İkinci hissədə isə İnnovasiyalar və təhsil proqramları şöbəsinin əməkdaşı Qənirə Qafarlı tərəfindən 7-16 yaş qrupu üçün nəzərdə tutulmuş intellektual oyun təşkil olunub.

# "Şuşa İli"ndə Azərbaycan və Türkiyə QHT-lərinin fəaliyyəti

## Ankarada müzakirə olunub

Ankarada səfərdə olan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndə heyəti Türkiyə Prezidenti Administrasiyası Kommunikasiya idarəsinin rəhbəri Fahrettin Altunla görüşüb. Heyətə QHT-lərə Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev, agentliyin icraçı direktoru Aygün Əliyeva və departament müdiri Elnur Bağırlı daxildir.

Qonaqları salamlayan Fahrettin Altun iki ölkənin vətəndaş cəmiyyəti qurumlarının ortaq fəaliyyətləri barədə fikirlərini bölüşüb. "Şuşa İli" çərçivəsində Azərbaycan və Türkiyə QHT-lərinin birgə əməkdaşlığının gücləndirilməsinin, ortaq fəaliyyətin vacibliyi qeyd edilib.

Agentliyin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev Türkiyənin vətəndaş cəmiyyəti təsisatları ilə çalışan aidiyyəti dövlət qurumları və QHT-lərin əlaqələrinin daha da gücləndirilməsinin vacibliyini qeyd edib. O, həmçinin Azərbaycan və Türkiyə QHT Platformasının yaradılması barədə fikirlərini bölüşüb, bu təşəbbüsün iki qardaş ölkənin vətəndaş cəmiyyəti qurumları və onların birgə fəaliyyətləri üçün əhəmiyyət kəsb etdiyini bildirib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov görüşdə iştirak edib.

**Bölgələrdən xəbərlər**

# Qala-şəhərimizin 270 illiyi münasibətilə

Bölgələrin mədəniyyət müəssisələrində "Şuşa İli" münasibətilə müxtəlif səpkili tədbirlər keçirilir, 270 yaşlı şəhərimizin milli-mədəni yaddaşımızdakı yerinə bir daha nəzər salınır.



Şəki Regional Mədəniyyət İdarəsi (RMİ) Balakən rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində Nizami adına tam orta məktəbin II sinif şagirdlərinin iştirakı ilə "2022-ci il "Şuşa İli" başlıqlı tədbir keçirilib. Kitabxananın biblioqrafı Rəna Dibirova məktəbliləri eyniadlı sərgi ilə tanış edib, Şuşa şəhərinin tarix və mədəniyyətimizə, ədəbiyyat və elmimizə bəxş etdiyi şəxsiyyətlər haqqında məlumat verib.

Ağstafa RMİ Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası şəhər istirahət parkında "Şuşa şəhərinin 270 illiyi – mədəniyyət paytaxtımızın şanlı tarixi" adlı səyyar sərgi təşkil edib. Sərgidə müxtəlif başlıqlarda 120-dən çox nəşr nümayiş olunub.




Ağdaş RMİ Zərdab rayon Tarix-Diyarşünaslıq Muzeyində "Şuşanın tarixi abidələri" adlı sərgi təşkil olunub. Sərgidə qədim şəhərimizdəki tarixi, mədəni və dini abidələrin fotoları və onların haqqında məlumat təqdim edilib.

Kürdəmir RMİ İmişli rayon Mədəniyyət Mərkəzində "Şuşa İli" ilə bağlı tədbir keçirilib. Tədbirdə "Şuşaya gedən yol: Qələbəni gətirən hərbi əməliyyatlar" adlı sənədli film nümayiş olunub.

# Müxtəlif səpkili tədbirlər



Biləsuvar Regional Mədəniyyət İdarəsi (RMİ) Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Fədakar ömür" mövzusunda tədbir keçirilib. Tədbirdə gənclər ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olub, ulu öndər haqqında filmə baxıblar.

Sumqayıt RMİ üzrə məktubatla işin təkmilləşdirilməsi, sosial şəbəkələrdə maarifləndirmə və təbliğatın daha səmərəli təşkili məqsədilə işçi qrupu yaradılıb. Qrupun ilk iclasında çıxış edən idarə rəisi Rəşad Əliyev müasir dövrdə sürətlə inkişaf edən informasiya texnologiyalarının həyatımıza sirayət etdiyini bildirib, bu xüsusda sosial şəbəkələrin yeri və rolundan bəhs edib. İşçi qrupu üzvlərinin fikir və təklifləri dinlənilib, gələcək addımlar müəyyən olunub və həyata keçiriləcək mədəniyyət tədbirlərinin məzmunu, habelə müəssisələrarası koordinasiyanın gücləndirilməsi ilə bağlı tapşırıqlar verilib.

İdarənin əhatə etdiyi Sumqayıt şəhər Qara Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin kollektivi Vətən müharibəsi şəhidi Əlizamin Mustafalının ailəsinə baş çəkib. Əməkdaşlar şəhid ailələrinə göstərilən dövlət qayğısından danışıb, ailənin qayğıları ilə maraqlanıb.

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyası Vətən müharibəsi şəhidi Qoşqar Üzeyirovun doğum günü münasibətilə "Torpaq qanla qarışanda Vətən olur" mövzusunda tədbir təşkil edib. Tədbirdə çıxış edənlər Vətən müharibəsində şücaət göstərən qəhrəman oğullarımız haqqında söhbət açıblar. Daha sonra şəhid Qoşqar Üzeyirov haqqında hazırlanmış videoçarxa və Vətən müharibəsi şəhidlərinin fotolarından ibarət sərgiyə baxış keçirilib.

Gəncə RMİ Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialı yazıçı, publisist, repressiya qurbanı Seyid Hüseyinin (1887-1938) anadan olmasının 135 illiyi ilə əlaqədar tədbir keçirib. Tədbirdə yazıçının "Mehriban", "Həzin bir xatirə", "Şirinnaz", "Gilan qızı", "Sarıköynək" və digər hekayələri haqqında məlumat verilib.

Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı Füzuli rayon mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə ötən il görülən işlər təhlil edilib, yeni ildə mədəniyyət işçilərinin qarşısında duran əsas işlərdən bəhs olunub. Ötən il səmərəli fəaliyyəti ilə fərqlənən mədəniyyət müəssisələrinin bir qrup əməkdaşı regional idarənin fəxri fərmanı ilə təltif edilib.



Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin Orta Muğan kənd klubu və kənd tam orta məktəbin birgə təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" adlı vətənpərvərlik mövzusunda tədbir keçirilib. Bədii qiraət dərnəyi üzvlərinin ifasında vətənpərvərlik ruhlu şeirlər səsləndirilib. Sonra məktəblilərin iştirakı ilə "Qarabağ Azərbaycandır!" fleşmobu keçirilib.

***

Bölgələrdə ərazi bütövlüyümüzün bərpasında canından keçən, xalqımıza Qələbə qüruru yaşadan Vətən qəhrəmanlarının adlarının əbədiləşdirilməsi istiqamətində işlər davam etdirilir.




Kürdəmir rayonunun Ərəbqubalı kəndində Vətən müharibəsi şəhidi Nurlan Eminovun xatirəsinə tikilən bulağın açılışı olub. Açılış mərasimində rayon rəhbərliyi, din xadimləri, kənd sakinləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları iştirak ediblər. Çıxışlarda qeyd olunub ki, Qarabağ Zəfəri xalqımızın birliyi, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əsgər və zabitlərimizin peşəkarlığı, qəhrəmanlığı sayəsində qazanılıb.

***

Tərtər rayonunun Sarıcalı kəndində də şəhidlərin xatirəsinə inşa edilən bulağın açılışı keçirilib. Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhid ailələri, müharibə veteranları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Sarıcalı kəndindən olan Vətən müharibəsində göstərdikləri şücaətdən danışılıb, Vətən fədailərinin əziz xatirəsinin daim qəlbimizdə yaşayacağı bildirilib.

**Hazırladı: N.Məmmədli**



# "Şuşa İli"ndən "Şuşa Əsri"nə...

*əvvəli səh. 1-də*

2020-ci ilin mayında Şuşasızlığın növbəti ildönümü münasibətilə qələmə aldığımız pritçada "Qarabağa getmək üçün gərək hamımız eyni rəngdə geyinək" deyə yazmışdıq. Bəli, təxminən beş ay sonra, sentyabrın 27-də xalq olaraq eyni rəngdə geyindik, Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşib əsir Qarabağa, Şuşaya sarı yol aldıq. Bunu "yol getmək" adlandırmaq o qədər doğru olmasa da, şanlı Ordumuz, əslində, canı-qanı ilə elə yol açırdı. Bu, Everest zirvəsinə yol çəkməkdən daha çətin, həm də daha şərəfli idi!

### Hədəfə doğru...

Yox, Qarabağ Zəfərinə doğru yolumuz uzun illər öncədən başlanmışdı. Daha dəqiq desək, 1994-cü il sentyabrın 20-də Qarabağsız, Şuşasız qalan, bir milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşən ölkənin paytaxtında "qara qızıl"ımızın istehsalı və dünya bazarına çıxarılmasını hədəfləyən "Əsrin müqaviləsi"nin imzalanmasından. Bəli, dünyanın aparıcı güclərinin (ABŞ, Rusiya, Türkiyə, Böyük Britaniya və s.) də yer aldığı ölkələrin gənc müstəqil Azərbaycana yüksək etibarının təsdiqi olan bir müqavilədən danışırıq. Bu etibarın əsas dayağını, sözsüz ki, müdrik dövlət xadimi, Prezident Heydər Əliyevin Azərbaycanın gələcək inkişafı ilə bağlı aydın yol xəritəsi təşkil edirdi. Hərtərəfli inkişafın daxili sabitlik və əmin-amanlığa bağlı olduğunu gözəl bilən görkəmli dövlət adamı öz ayaqları üzərində güclə dayanan respublikanın işıqlı gələcəyinə inandığı kimi, beynəlxalq birliyi də inandırmağı bacarmışdı. Müdriklər "inanmaq bacarmağın yarısıdır", deyir...

İllər ötür, mavi Xəzərin dərinliklərindəki karbohidrogen ehtiyatlarımız üzə çıxarılır, Avropaya sarı yol alır. Böyük meqapolislərin birjalarında yeni ad yazılır: "Azeri Light". Bu iki kəlmə xarici birjalarda oxunursa, deməli, ölkəmizə valyuta axını da başlayır. Ölkə həyatının bütün sahələri inkişafdan nəsibini alır. Bu həm də ümummilli Qarabağ dərdimizə məlhəmə çevrilir. Azərbaycan öz hədəflərinə doğru inamla irəliləyir, bir nömrəli problem – ərazi bütövlüyümüzün həlli istiqamətində kompleks iş aparılır. Ölkəmizin iqtisadi inkişafı hərbi potensialımızın da artması ilə paralel addımlayır. Modern hərbi texnikalar alınır, hərbi infrastruktur yenilənir. Dünyada adından söz etdirən qardaş Türkiyə Ordusu timsalında Silahlı Qüvvələrimizin döyüş qüdrəti artırılır. Qardaş orduların mütəmadi birgə hərbi təlimləri, müxtəlif sahələr üzrə təcrübə kursları həyata keçirilir.

Bütün bunlarla yanaşı, dövlətin xarici siyasət vektoru hansı istiqamətlərə yönəlirsə-yönəlsin, sonda Qarabağ məsələsində, Azərbaycanın haqq işi üzərində birləşirdi. Yəni Azərbaycan beynəlxalq təşkilatlar səviyyəsində, habelə dünyanın aparıcı ölkələri ilə münasibətdə öz dayaqlarını ildən-ilə möhkəmləndirir, tərəfdaşlarının sırasını genişləndirirdi. Getdikcə ölkəmizin Qarabağın gerçək sahibi kimi öz ərazilərinin itkisi ilə heç vaxt barışmayacağı həqiqəti beynəlxalq düşüncədə də kök salırdı.

Etiraf edək ki, Ordumuzun qüdrətinə nə qədər inansaq da, işğal davam etdikcə təkcə öz yurdundan didərgin düşənlər deyil, bütün soydaşlarımızın səbri tükənirdi. Səmərəsiz danışıqlar, beynəlxalq birliyin ikili standartları, üstəgəl işğalçı ölkənin milli heysiyyətimizlə oynaması ordu və xalqın qisas hisslərini daha da alovlandırırdı. 2021-ci il avqustun 30-da Şuşada Vaqif Poeziya Günlərinin açılışında çıxış edən Prezident İlham Əliyev deyirdi: "İşğal dövründə bir çoxlarımız, həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik.. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə olaraq, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır...".

Bəli, ötən onillər ərzində Azərbaycan dövləti öz hədəfindən, əsas məqsədindən heç vaxt ayrı düşmədi, Qarabağ Zəfərini hər gün bir qədər də yaxınlaşdırdı. Ordu quruculuğu prosesində döyüş qabiliyyəti ilə yanaşı, Azərbaycan əsgəri mənəvi-psixoloji cəhətdən yalnız yenilməzliyə hazırlandı. Bu hazırlıq təkcə əsgər və zabitlərlə məhdudlaşmırdı, arxa cəbhəni, hərbçilərin ailələri və yaxınlarını, bütün toplumu əhatə edirdi. Təsadüfi deyil ki, Ordumuzun generalından əsgərinə – hərbi geyim daşıyan hər kəs Ali Baş Komandanın əmrini gözləyirdi.

2020-ci ilin 27 sentyabrında işğal altındakı Vətən torpağının qurtuluşu üçün başlanan haqq savaşı ilə şücaət, cəsarət, qorxmazlıq kimi anlayışlar mücərrədlik mahiyyətini reallığa verdi. Xalq orduya çevrildi. Düşməndən fərqli olaraq Ordumuzun hər bir əsgər və zabiti əzəli yurd yerlərimiz uğrunda, müqəddəs Vətən yolunda çox asanlıqla canından keçməyin örnəyini ortaya qoydu. Məhz bu fədakarlıq və şücaət sayəsində müharibənin ömürlər kəsən ömrü 44 gün çəkdi...

### Yollardan çəkilən gözlər...

Elə bilirsiniz torpaq öz sahibinin yolunu gözləmir. Axı o, "əcdadlarımızın mədfənidir"! Nəfəsimiz dəyməyən, kül tökmədiyimiz torpaq gül açarmı? Məmməd Arazın yazdığı kimi,

*Bu torpaq, pilə torpaq,*
*Dilini bilə torpaq!*
*Torpağa kül tökməsən -*
*Dönəcək külə torpaq...*

Artıq intizar yurdun da, doğma torpaq üçün burnunun ucu göynəyən insanların da gözləri yollardan çəkilib. Mənfur düşmənin xarabaya çevirdiyi Qarabağın, Şərqi Zəngəzurun yeni növrağı başlanıb, şəhər və kəndlərimiz yenidən qurulur, tarix-mədəniyyət abidələrimiz bərpa olunur. Dövlətimiz, Prezident İlham Əliyevin dediyi kimi, "təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan" bu işləri həyata keçirir. Bu bərpa və quruculuq prosesi ilə paralel vaxtilə özünəməxsus mədəniyyəti, sənəti ilə dünyada Azərbaycanın şöhrətinə şöhrət qatan əzəli torpaqlarımıza 30 illik fasilədən sonra mədəni mühiti də qaytarırıq. Yağıdan qurtardığımız torpaqlara təkcə daşı daş üstə qoymağa getmirik, biz bu yurdu gözümüzün üstünə qoymaq üçün oradayıq! Çünki öz halal yurdumuzu bizə vermədilər, onu döyüşərək, canımızla, qanımızla aldıq!

Dövlət başçısının sərəncamı ilə mədəniyyət paytaxtımız Şuşanın adı 2022-ci ilə verilib. Hər əsr bir ildən başlayır. Bu mənada, "Şuşa İli" həm də "Şuşa Əsri"nin qaranquşudur. Bəli, biz "Şuşa Əsri"nə yol almışıq. Bu yol artıq yeni tamamlanan Zəfər yolu qədər hamar və təhlükəsiz, eyni zamanda mədəniyyət yoludur. Bu gün Pənahəli xanın 270 il əvvəl təməlini qoyduğu Şuşanın yeni tarixi yazılır. Adı şanlı Zəfərlə qoşa çəkilən tarix!...

**Fariz Yunisli**

# Azad edilmiş torpaqlardakı naməlum məzarlar

## Axtarış-araşdırma işlərində dronlardan da istifadə ediləcək

"Vətən müharibəsində əldə edilmiş möhtəşəm Zəfərdən sonra Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşlarımızla bağlı Dövlət Komissiyasına, o cümlədən aidiyyəti dövlət qurumlarına müraciətlərin sayı artıb".

Bunu APA-ya müsahibəsində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov deyib.

O bildirib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Dövlət Komissiyası işğaldan azad olunmuş ərazilərdəki məzar yerlərində müvafiq işlərin aparılmasına ilk günlərdən hazırlaşmağa başlayıb: "İctimaiyyətin marağını nəzərə alaraq diqqətə çatdırıram ki, bu sahədə vəziyyət təhlil edilib və ölkə rəhbərliyinin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərdə meyit qalıqlarının axtarışı, ekshumasiyası və eyniləşdirilməsi ilə bağlı aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət xüsusi heyət yaradılıb.

Heyətə Dövlət Komissiyasının İşçi qrupu, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Hərbi Prokurorluq, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Dövlət Sərhəd Xidməti, Minatəmizləmə Agentliyi və Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssisləri daxildir".

İsmayıl Axundov diqqətə çatdırıb ki, heyətin qarşısında duran əsas vəzifə Dövlət Komissiyasında toplanmış və gələcəkdə əldə ediləcək məlumatlar əsasında axtarış işlərinin aparılmasından, məzar yerlərinin müəyyən edilməsindən, ekshumasiya (meyitin və ya nəşin qalıqlarının məzardan çıxarılması) və eyniləşdirmə işlərinin aparılmasından ibarətdir. Axtarış işlərinin aparılması üçün ən müasir texnologiyaların tətbiqi də nəzərdə tutulur. Bu məqsədlə artıq dünyada mövcud olan müvafiq dron texnologiyasından istifadə edilməsi üçün hazırlıq işləri aparılır. Dövlət Komissiyası sədrinin göstərişi ilə artıq bu texnologiya alınaraq Azərbaycana gətirilib.

Qeyd edək ki, aidiyyəti dövlət qurumları tərəfindən ilk ekshumasiya işi işğaldan azad edilmiş Şuşanın Daşaltı kəndində aparılıb. İşçi qrupunun rəhbəri diqqətə çatdırıb ki, 1992-ci il yanvarın 26-da həyata keçirilmiş uğursuz Daşaltı əməliyyatı zamanı itkin düşmüş 44 Azərbaycan vətəndaşı Dövlət Komissiyasında qeydiyyata alınıb. O qeyd edib ki, 2021-ci ilin fevral ayında



Daşaltı kəndində müvafiq axtarış-araşdırma keçirilib və məhz həmin əməliyyat zamanı həlak olaraq dəfn edilmiş Azərbaycan vətəndaşlarına aid edildiyi bildirilən məzar yeri müəyyən edilib. Ekshumasiya prosesində Daşaltı kəndi ərazisində aşkar edilmiş meyit qalıqları DNT nümunələrinin götürülməsi üçün Səhiyyə Nazirliyi Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinə təqdim edilib. Meyit qalıqlarından götürülmüş DNT nümunələrindən müvafiq profillər çıxarıldıqdan sonra eyniləşdirmə işinə başlanılacaq.

### Redaksiyadan

Son vaxtlar ölkəmizdə ayrı-ayrı özəl təsisatlar, ictimai qurumlar, qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif təyinatlı, bəzən isə təyinatı da, məqsədi də, seçim-təltif meyarları da, yumşaq desək, sual doğuran mükafatların elan olunmasının, təmtəraqlı təqdimatlarının şahidi olur, xəbərlərini eşidirik. Bu sırada adında, təşkilati şəbəkəsində "beynəlxalq miqyas" olan təsisatlar xüsusilə diqqət çəkir. Bir neçə il əvvəl "Beynəlxalq Avropa Nəşr Mətbuat Evi" adlı qurumun medal təqdimatı xəbərlərini oxuyanda ilk adı diqqətimizi çəkmişdi. Sonra məlum oldu ki, AMEA-nın əməkdaşı Şöhrət Səlimbəylinin (ötən il dünyasını dəyişib, Allah rəhmət eləsin) rəhbəri olduğu qurumun Avropası, sadəcə, adındadır. Axır günlər isə adı Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə bir yerdə hallanan UNCOPA deyilən təsisatın mükafatları xəbər mövzusu olub. İş o yerə çatıb ki, BMT-nin Azərbaycandakı Nümayəndəliyindən bununla bağlı açıqlama yayılıb... Müxtəsəri, bu "beynəlxalq mükafatlar" geniş araşdırılası məsələdir və mövzuya qayıdacağıq...

UNCOPA MÜƏMMASI

# BMT-nin adından mükafat paylayan kimdir?

İnsanın əsas məqsədlərindən biri də öz karyerasında uğurla addımlamaqdır. Peşəsini sevənlər daim öz üzərində çalışır, bilik və bacarıqlarını artırmaq üçün əlindən gələni edir. Qazandığı uğurun qarşısında insanın qiymətləndirilməsi hər kəsin arzusudur. Öz uğuruna qəlb rahatlığı ilə sevinmək isə əvəzsiz hissdir. Çünki təltif edilmək yeni nailiyyətlər üçün əlavə stimul olur, məsuliyyətimizi daha da artırır. Amma bu, gerçək qurum və onun real mükafatları olarsa...

Bəzən müxtəlif sahələrdə çalışan insanları qiymətləndirən qurumlar mətbuatda və media orqanlarında hansısa mötəbər təşkilatın təmsilçisi kimi qələmə verilir. Belə qurumlardan biri də adı "United Nations Council for Public Awards – UNCOPA" kimi təqdim edilən təsisatdır.

Mətbuatda BMT-nin mükafat verən şurası kimi qeyd olunan bu qurum Azərbaycanın da tanınmış elm, mədəniyyət və incəsənət xadimlərini, həmçinin iş adamlarını müxtəlif nominasiyalar üzrə təltif edib.

Qeyd edək ki, BMT-nin ictimai və dövlət xidməti üzrə mükafatı, həqiqətən, mövcuddur və ingiliscə belə adlanır: United Nations Public Service Awards – UNPSA (Birləşmiş Millətlər İctimai Xidmət Mükafatları). Yeri gəlmişkən deyək ki, BMT Baş Assambleyasının müvafiq qətnaməsi ilə 2003-cü ildə 23 iyun tarixi dövlət qulluqçularının peşə bayramı – "Dövlət xidməti günü" elan edilib. BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən müvafiq mükafatların da dövlət xidmətinin rolunun, nüfuzunun artırılması işinə töhfələrə görə bu əlamətdar gündə verilməsi müəyyən edilib. Milli və sub-milli səviyyələrdə bütün ictimai təşkilatlar (agentliklər), habelə dövlət-özəl tərəfdaşlıqları və xarici dövlət xidməti funksiyalarını yerinə yetirən təşkilatlar sözügedən mükafat üçün namizədliklərini verə bilərlər. Müxtəlif inkişaf səviyyələri və gəlirləri olan ölkələrdən alınan nominasiyalar üzrə rəqabət mühitini bərabərləşdirmək üçün Dövlət Xidməti Mükafatlarının verilməsi üçün Afrika, Asiya və Sakit Okean, Avropa, Şimali Amerika, Latın Amerikası və Karib hövzəsi və Qərbi Asiya regionları müəyyən olunub.

Təşkilata müraciət prosesi iki mərhələdən ibarətdir. İlk olaraq ərizə forması onlayn şəkildə doldurulmalıdır. Namizədlərin müraciəti mütləq BMT-nin altı rəsmi dilindən (ərəb, çin, ingilis, fransız, rus və ispan) birində təqdim olunmalıdır. Müraciətləri qəbul etdikdən sonra təşkilatın Dövlət qurumları və rəqəmsal hökumət şöbəsi (DPİDG) nominasiyaları əvvəlcədən seçir. Namizədlərin arayış məktubları, təsdiqedici sənədlər kimi əlavə məlumatları təqdim etmələri xahiş olunur. Sonra namizədlərin qısa siyahısını təqdim edir. Bu siyahı BMT-nin Dövlət İdarəçiliyi üzrə Ekspertlər Komitəsi tərəfindən nəzərdən keçirildikdən sonra mükafatların qalibləri ilə bağlı Baş katibə müraciət olunur...

BMT-nin Dövlət Xidməti Mükafatlarının qalibləri hər il 23 iyun – Dövlət xidməti günündə Nyu-Yorkda, təşkilatın mənzil-qərargahında və ya Dövlət Xidmətləri Forumunun bir hissəsi olaraq ev sahibi ölkədə keçirilən yüksək səviyyəli tədbirdə elan edilir.




Göründüyü kimi, BMT-nin mükafat verən təşkilatı rəsmi olaraq UNPSA-dır və onun təltifinə layiq görülmək elə də asan proses deyil.

Bəs BMT ilə adı hallanan və mətbuatda yer alan xəbərlərdə BMT-nin mükafatlarını təqdim edən qurum kimi qeyd olunan UNCOPA ilə bağlı vəziyyət, əslində, necədir? Bu təşkilat haqqında araşdırma apararkən bu bir cümlədən və verilən mükafatların fotolarından başqa əlavə məlumat tapa bilmədik: "UNCOPA İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən və dünya miqyaslı alimləri müxtəlif nailiyyətlərinə görə dəyərləndirən qurumdur".

Mükafatlara diqqət yetirərkən bir sıra məqamlar diqqətimizi çəkdi. Təltif vərəqinin sağında yuxarıda BMT-nin məlum rəsmi emblemi əks olunub. Sonda isə təltif edən şəxsin (Mehmet Şükrü Güzel) imzası yer alıb. Mükafatlar əsasən dünya şöhrətli elm, incəsənət xadimlərinin adı ilə verilir. Məsələn, alman filosof, riyaziyyatçı Qotfrid Vilhelm Leybnis, italyan rəssam, heykəltəraş Leonardo Da Vinci, İsveçrə riyaziyyatçısı Leonard Eyler və s.

UNCOPA barədə araşdırma apararkən BMT-nin Azərbaycandakı Nümayəndəliyinə də müraciət edib təşkilatın belə bir qurumunun olub-olmadığını xəbər aldıq. Nümayəndəlikdən onların da bu qurum haqqında heç bir məlumata sahib olmadıqlarını bildirdilər.

İki gün öncə isə BMT-nin Azərbaycandakı Nümayəndəliyi İnformasiya mərkəzinin rəhbəri Rəşad Hüseynov sosial şəbəkə hesabından bununla bağlı açıqlama paylaşdı: "Birləşmiş Millətlər Təşkilatının (BMT) UNCOPA adlı qurumu və ya agentliyi yoxdur. Azərbaycan vətəndaşlarına müxtəlif adda mükafatlar verən bu təşkilatın Cenevrədə yerləşdiyi yazılır. Lakin internetdən onun statusu (QHT? Özəl şirkət?) və digər fəaliyyətləri haqqında məlumat tapa bilmədim. Təşkilatın vebsaytı belə yoxdur...".

R.Hüseynov bildirib ki, bir təşkilat istədiyi adama və ya quruma mükafat verə bilər: "Sadəcə, bilməyinizi istəyirəm ki, UNCOPA-nın verdiyi mükafatların BMT ilə yaxından-uzaqdan əlaqəsi yoxdur... Təəssüf ki, bu hal birinci dəfə baş vermir. Bundan öncə də UNCOPA-dan mükafat almış bəzi dövlət, elm və mədəniyyət təmsilçiləri bunu BMT-nin verdiyini bəyan edib".

BMT-nin Azərbaycandakı Nümayəndəliyi İnformasiya mərkəzinin rəhbəri qeyd edib ki, ictimaiyyət UNCOPA-nın mükafatını BMT-nin Dövlət Xidmətləri Mükafatı (UN Public Service Awards) ilə səhv salır. Azərbaycanda BMT-nin Dövlət Xidmətləri Mükafatına yalnız "ASAN Xidmət" layiq görülüb.

Bu arada öyrəndik ki, "Vektor" Beynəlxalq Elmlər Akademiyasının qurucu prezidenti, professor Elçin İsgəndərzadə həm də UNCOPA-nın Azərbaycan təmsilçisi imiş. Elçin müəllimlə əlaqə saxlayıb təmsil etdiyi qurum haqqında məlumat aldıq. O da UNCOPA-nın BMT ilə heç bir əlaqəsinin olmadığını dedi: "UNCOPA 1996-cı ildə yaradılıb. Təşkilat İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərir. Quruma 15 ildən artıqdır ki, Mehmet Şükrü Güzel rəhbərlik edir. Qurum dünyada insanlığa xidmət göstərən şəxslərin əməyini dəyərləndirir, müxtəlif fəxri adlar, orden və medallarla təltif edir. Bunun da məqsədi həmin insanların fəaliyyətini müxtəlif ölkələrdə nümunə kimi təbliğ və təşviq etməkdir. 2009-cu ildən həm ölkəmizdə, həm də onun sərhədlərindən kənarda fəaliyyət göstərən 30 nəfərə yaxın müxtəlif peşə sahibi olan azərbaycanlı – dövlət, elm, mədəniyyət, incəsənət, təhsil xadimləri, iş adamları və digərləri bu qurumun müxtəlif nominasiyaları üzrə təltif olunub...".

Qurumun mükafatında BMT-nin rəsmi embleminin əks olunmasına münasibət bildirən Elçin İsgəndərzadə bildirdi ki, UNCOPA yarandığı gündən BMT-nin məramlarını özü üçün əsas hədəf seçib. Fəaliyyətini həmin istiqamətdə qurduğu üçün təltif vərəqində BMT-nin emblemi yer alır.

Sonda belə bir nəticəyə gəlmək olur ki, bizi mükafata layiq bilən bəzi qurumları daha dərindən araşdırmalı, gerçək uğurlarımıza adekvat olub-olmadığına diqqət yeritməliyik. Əks halda nailiyyətimizə qəlb rahatlığı ilə sevinə bilməyəcəyik...

**Nurəddin**

# İki əsər – iki zirvə

## Qara Qarayevin “Yeddi gözəl” və “İldırımlı yollarla” baletlərinin yubiley tədbiri






Yanvarın 25-də Qara Qarayevin Ev-Muzeyində Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə görkəmli bəstəkarın “Yeddi gözəl” baletinin 70, “İldırımlı yollarla” baletinin 65 illik yubileylərinə həsr olunan tədbir keçirildi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova tədbiri açaraq bildirdi ki, bu il dünya şöhrətli Azərbaycan bəstəkarı Qara Qarayev yaradıcılığının zirvəsi olan “Yeddi gözəl” və “İldırımlı yollarla” baletlərinin yubiley ildönümüdür: “Dahi bəstəkarın adıçəkilən və digər əsərlərinə görə fəxarət hissi ilə deyə bilirik ki, Qara Qarayev Azərbaycan mədəniyyətinə dünya şöhrəti gətirən musiqi xadimlərimizdən biridir”.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə Qara Qarayevin bənzərsiz yaradıcılığının zirvəsi olan hər iki baletdən söz açdı. Diqqətə çatdırdı ki, böyük bəstəkarın dahi Nizami Gəncəvinin “Yeddi gözəl” poemasının motivləri əsasında yazdığı eyniadlı baletin ilk tamaşası 1952-ci ildə Bakıda Opera və Balet Teatrının səhnəsində gerçəkləşib: “Əsər cazibədar melodiyaları ilə diqqət çəkdi, musiqisinin koloriti, rəngarəngliyi müəllifə parlaq nailiyyət qazandırdı. Balet o dövrdə, demək olar ki, keçmiş SSRİ-nin və dünyanın bir çox teatr səhnəsində tamaşaya qoyuldu. Qarşıdan isə “İldırımlı yollarla” baletinin nəfəsi duyulurdu. Cənubi Afrika yazıçısı Piter Abrahamsın romanı əsasında yazdığı bu baletə qədər Qara Qarayevin həyat və yaradıcılığında zirvələrə qanadlanan müxtəlif yeniliklər baş verirdi. Onun yorulmadan bəstələdiyi süitalar, simfonik orkestr üçün xoreoqrafik lövhələr, kinofilmlər, eləcə də tamaşalar üçün işlədiyi musiqilər və mahnılar ayrı-ayrılıqda bir sənət zirvəsi idi...”.

Tədbirdə daha sonra musiqişünas Raya Abbasova, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Cəmilə Kərimova və başqaları çıxış edərək Qara Qarayev baletlərinin yaranması və tamaşaya qoyulmasından, qazandığı səhnə uğurlarından söz açdılar. Bildirildi ki, bəstəkar “İldırımlı yollarla” baleti ilə Azərbaycanın mədəniyyət tarixinin yeni, parlaq bir səhifəsini yazıb.

Çıxışlardan sonra baletlərin müxtəlif illərdəki tamaşalarından fotolar, Rusiya, İsveç, Türkiyə və başqa ölkələrin teatrlarındakı nümayişlərindən rəngarəng səhnə dekorasiyalarının videonümayişi təqdim edildi. Həmçinin Mədəniyyət Nazirliyinin sifarişi ilə “Dublyaj” studiyasında çəkilmiş “Balet, ömrüm mənim” (görkəmli balet ustaları – Xalq artistləri Rəfiqə Axundova və Maqsud Məmmədov haqqında) sənədli filmi nümayiş olundu.

Tədbirdə həmçinin Azərbaycanın və Rusiyanın Əməkdar artisti Vitali Axundov və məşhur balet tənqidçisi Aleksandr Maksovun Qara Qarayevin yaradıcılığı ilə bağlı videoçıxışları təqdim edildi.

**Savalan Fərəcov**

# Binokulyar ağır görmə pozuntusu olanlar

## Musiqi və incəsənət məktəblərində çalışa biləcəklər

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”na əsasən, binokulyar korluq və binokulyar ağır görmə pozuntusu olan şəxslərin, xüsusi təhsil müəssisələri istisna olmaqla, pedaqoji fəaliyyətlə məşğul olmasına icazə verilmirdi.

Bununla bağlı çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birgə hazırlanmış müvafiq sənəd aidiyyəti üzrə təqdim edilmişdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 yanvar tarixli 23 nömrəli Qərarı ilə “Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı”na dəyişiklik edilib. Qərara əsasən, adıçəkilən xəstəlikləri olan şəxslərin uşaq musiqi və incəsənət məktəblərində pedaqoji fəaliyyətinə icazə verilir.

# Ağdam teatrının repertuarından

Ötən ili Nikolay Nekrasovun əsəri əsasında hazırlanmış “Sələmçi” tamaşasının premyerası ilə başa vuran Ağdam Dövlət Dram Teatrının 2022-ci il repertuar planı da rəngarəngdir. Bu il kollektiv dörd tamaşanı teatrsevərlərə təqdim etmək niyyətindədir.



Artıq ilk nümunənin məşqləri başlayıb. Əli Əmirlinin “Onun iki qabırğası” pyesi teatrın baş rejissoru Kərim Həsənovun quruluşunda səhnələşdirilir. Tamaşanın gələn ay təqdim olunması nəzərdə tutulub.

Sənət ocağı Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”ına da yer ayırıb. Səhnə əsərinə gənc rejissor Səbuhi Əhmədov quruluş verəcək.

Üçüncü rübün planına daxil edilən Sahib İbrahimlinin “Bir ovuc torpaq” əsərinə isə aktyor-rejissor Elmir Hümbətov səhnə həlli verəcək.

Anton Çexovun “Albalı bağı” pyesini ağdamlı teatrsevərlər üçün səhnələşdirməyi düşünən yaradıcı heyət (quruluşçu rejissor – Kərim Həsənov) nümunəni bu ilin sonuna tamaşaçı önünə çıxaracaq.

# YARAT-ın “Müasir incəsənət məktəbi”

YARAT Müasir İncəsənət Məkanı “YARAT Təhsil” proqramı çərçivəsində “Müasir incəsənət məktəbi” layihəsinə başlayır. Əməkdar rəssam, kurator Sabina Şıxlinskayanın rəhbərlik edəcəyi birillik kursun yekununda müasir incəsənətin rəssamlıq, kuratorluq, art-menecer, art-tənqidçi və tədqiqatçı sahələri üzrə mütəxəssislərə sertifikatlar veriləcək.

Layihə həm nəzəri, həm də praktiki hissələrdən ibarətdir. Birinci mərhələ 6 aylıq intensiv nəzəri proqramı nəzərdə tutur. Proqram çərçivəsində yerli və xarici mütəxəssislər tərəfindən müasir incəsənətin fotoqrafiya, video, instalyasiya, performans, konseptual rəngkarlıq, heykəltəraşlıq, kollaj, animasiya və s. kimi janrları üzrə mühazirələr keçiriləcək. Həmçinin bir sıra qalereya, muzey və incəsənət məkanlarında görüşlər və müzakirələr təşkil ediləcək.

Nəzəri mərhələdən sonra yekun sərgiyə sərginin ideya və konsepsiyalarının təqdimatı, tədqiqatların aparılması, büdcənin hazırlanması, quraşdırılması, yekun sərginin açılışı daxildir.

Qəbul müsabiqə əsasında aparılacaq. Dərslər həftədə 3 dəfə keçiriləcək.

# Milli Dram Teatrında karantin

## Koronavirusa görə iki həftə bağlı olacaq




Son günlər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının əməkdaşları arasında COVİD-19 infeksiyasına yoluxma hallarının artması ilə əlaqədar profilaktik tədbirlərin görülməsi qərara alınıb. Yanvarın 23-dən fevralın 7-dək teatrın iş fəaliyyətini dayandırması haqqında qərar qəbul olunub.

Bu barədə məlumat verən teatrın mətbuat katibi Cavid Zeynallının sözlərinə görə, qeyd olunan tarixlərə təyin edilmiş tamaşa nümayişləri və məşqlər təxirə salınıb, teatrın inzibati binasına giriş fevralın7-dək məhdudlaşdırılıb. Həmin tarixlərdə nəzərdə tutulan tamaşalar fevralın 7-dən etibarən nümayiş olunacaq.

# “Gəl qohum olaq”

## Xalq artisti Ağdaşda tamaşa hazırlayır



Xalq artisti Valeh Kərimov Ağdaş rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının heyəti ilə İsi Məlikzadənin “Gəl qohum olaq” pyesi əsasında tamaşa hazırlayır.

Tamaşaya quruluş verən Valeh Kərimov eyni zamanda rollardan birini oynayır.  Ağdaş Xalq teatrının aktyorları Camal Xəlilov, Turanə Şıxəliyeva, Xanbala Qəniyev və Şəhla Nəcəfovanın da rol aldığı tamaşanın son məşq prosesləri aparılır.

Premyeranın Ağdaş rayon Heydər Əliyev Mərkəzində keçirilməsi nəzərdə tutulub.

# “Balaca, yaramaz məxluq” özünsən!...

Yazının başlığını əcaib saymayın. Təki bütün balaca və yaramaz görünən məxluqlar sonda belə qalib olsunlar. Əslində, çox vaxt məhz onlar – yəni imtina, gözardı edilmişlərin həqiqəti zəfər çalır. Amma bu, elə də asan olmur. Bizim “Balaca, yaramaz məxluq” kimi...

Alman filosof Hegelə görə, məhəbbət insanın özünü başqasında tapmasıdır. İş belədirsə, deməli, biz istər fərd, istərsə də cəmiyyət olaraq ömrü boyu itmək üçün axtarırıq. Təbii ki, söhbət burada fiziki və yaxud mənəvi məhəbbət və ya itkidən yox, canlı olaraq natamamlığa sərf olunan ömrümüzün müddətindəki qazanc və itkilərdən gedir. Belədirsə, heç bir uzun-uzadı plan-proqram, çəhrayı xəyallar qurmadan, başımızdan yekə iddialar etmədən yaşamalıyıq. Bacarsaq.

Yaxşı, gəlin görək yaşaya bilirikmi, daha da önəmlisi, yaşatmağa, yaşamağa imkan veririkmi? Amma bəzən bir tikə də olsa özünü, azadlığını, ruhunu, hisslərini ifadə edib, bununla özünü xoşbəxt hiss etmək istəyən, yaxud xoşbəxt olduğunu xəyal edən adamların başının üstündən fırtına kimi keçib, onları həyatından bezdirənə qədər dirəşirik. Nəticə bəzi hallarda çox acı olur. Həyata son vermək, intihar...

Səksəndiniz? Bu günlərdə premyera ilə sənətsevərləri ətrafına toplayan Dövlət Gənc Tamaşaçılar Teatrı cəmiyyəti narahat edən, onun ağrısına çevrilən problem mövzunu səhnəyə gətirən “Balaca, yaramaz məxluq”u təqdim etdi. Adına çox da bənd olmayın. Ya hamımız yığılıb o balaca yaramazı qorumalı, ya da vicdanımızı qarşımıza qoyub içimizdəki bala yaramazları böyütməliyik.

Tamaşa son zamanlar cəmiyyətimizdə yeniyetmə və gənclər arasında baş verən intihar hadisələrinin əsas səbəbləri üzərində qurulub. Problemi harada axtarmaq lazımdır: cəmiyyətdə, ailədə, məktəbdə, biganəlikdə, yoxsa ikili həyat tərzi standartlarında?

Səhnə əsərinin iddia və ideyası  çox sadə və konkretdir. Hadisə məktəblərin birində baş verir. Tamaşa boyu üzünü görmədiyimiz, yalnız haqqında danışılan Aysel adlı yeniyetmənin ruh halı, yaşadığı problemlər, həmyaşıdları tərəfindən psixoloji şiddət və təzyiqə (yeni terminlə ifadə etsək, bullinqə) məruz qalmasından danışılır. Daha doğrusu, onun müəllimi Fidan həyəcan təbili çalır və bütün məktəb rəhbərliyini problemin həllinə cəlb etməyə çalışır.

Proseslər idman zalında gedir və təxminən bir saat müddətində Ayselin yaşadıqları fonunda, əslində, məktəb kollektivinin hər bir üzvünün mənəvi problemləri, dərdləri üzə çıxır və sonda hamılıqla bir qərara gəlirik: hər kəs ilk olaraq özünə baxmalı və yalnız özü üzərində nəzarəti təmin etməlidir. Belə olduqda nə başqalarını tərbiyə və tənqidə, nə də mühakimə etməyə vaxtı olmayacaq. Bəlkə də heç buna ehtiyac qalmayacaq. Bu anlamda səhnə işi sırf cəsarətinə və ideyanın sadə və lakonik həllinə görə bütün görünən qüsurlarının üstünü örtür.

Tamaşanın ədəbi əsasının müəllifi dramaturq İsmayıl İmandır. Psixoloji dram janrında yazılan pyesə Əməkdar incəsənət xadimi, teatrın baş rejissoru Bəhram Osmanov quruluş verib. Sadə tərtibatlı tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Şamxal Novruzlu, xoreoqrafı Nigar İbrahimbəylidir. Rolları Yasəmən Məmmədova (Solmaz), İlahə



Əmirxanova (Fidan), Elşən Hacıbabayev (Həsən), Əməkdar artist Gülər Nəbiyeva (Tamilla) və Araz Pirimov (Toğrul) ifa edirlər.

Tamaşa ritmik musiqinin sədaları altında məktəbin direktor müavini Həsənlə müəllim yoldaşı Toğrulun voleybol oyunu ilə başlayır. Tamaşaçının nəbzini tutmağa, onunla hərəkətli ünsiyyətə hesablanan bu səhnədə onlar topu tez-tez tamaşaçı tərəfə atırlar. Cavab olaraq isə sıralardan kimlərsə ayağa qalxıb topu yenidən səhnəyə qaytarır. Onu da deyim ki, premyeranın nümayiş olunduğu Teatr Xadimləri İttifaqının nisbətən soyuq zalında büzüşüb oturan tamaşaçıların qırışığı bu yolla 2-3 dəqiqədən sonra açıldı.

İclas üçün idman zalının seçilməsi də təsadüfi deyil. Çünki biz burada mübahisə-mühakimələrin zaman-zaman fiziki təsvirlərini də görürük. Məsələn, məktəbin direktoru, yas məclisindən yenicə qayıdan və orada yediyi plovu həzm etməkdə çətinlik çəkən Solmazın ona qarşı iddialar irəli sürən Fidanı saçından tutub sürüməsini, yaxud “Üzdəniraq məxluqlardan yaxşı ki, bizim məktəbdə yoxdur” deməklə, əslində, özünün o  şakərini ustalıqla gizləyən Həsənin hoqqabazlıqlarını. Bura Fidanla eşq yaşamaq üçün əlindən cəsarətdən başqa hər iş gələn Toğrulun xəyalını qurduğu macəralar üçün də əvəzsiz məkandır.



İş gününün sonudur və gərgin pedaqoji heyət onsuz da zəhləri gedən və hər vəchlə əxlaqsız damğasını vurduqları Fidana qəzəblidir. Bütün bunları bilən və vecinə almayan Fidan məktəbli Ayselin problemini sadaladıqca və ona kömək üçün təkliflər verdikcə başda direktor olmaqla hər kəs onu tənə yağışına tutur. Gah onu, gah da qızcığazı asıb-kəsirlər.

Beləcə, qəhrəman (Fidan) tamaşa boyu rüşvətxor direktor və üzdəniraq müavini, ona sevgisini hər kəsdən gizlədən istismarçı Toğrul, özündən başqa qadın yaratmağa çalışan Tamilla – bir sözlə, hər kəs ilə ayrı-ayrı müzakirə qurur. Nəticədə Ayselin pedaqoqların problemləri fonunda görünməz qalan məsələsini həll edir. Uzun çəkişmələrdən sonra direktor “Qızı götürüb yanıma gələrsən”lə bizə işığın ucunu göstərir. Yəni cəmiyyət olaraq hər birimizin dialoqa, bir-birimizi dinləməyə ehtiyacımız  olduğunu deyir.

Tamaşadan gəldiyimiz qənaətlər təxminən bunlardır: sizi idarə etdiklərini düşünənlər, əslində, özləri marionetlərdir; əxlaq dərsini heç də həmişə əxlaqlı insanlar vermirlər; zəif adamlar daim şişkin əzələləri ilə qorxularını boğmağa çalışırlar; başqalarının doğruları ilə hərəkət edənlər heç vaxt həqiqətlə rastlaşmırlar; haqqın yolu, çətin olsa da, birdir və s.

Dramaturqdan işıqçıya böyük bir heyət uzun müddət  (tamaşanın məşqləri hələ pandemiyanın ilk dövrlərində “Zoom” proqramı ilə başlanmışdı) götür-qoy etdikdən sonra səhnəyə çıxardıqları iş vasitəsilə bizə incə bir məqamı pıçıldadılar: “Bilirəm, əslində, sən özün ən mükəmməl “Balaca, yaramaz məxluq”san, sadəcə, bunu etirafa cəsarətin çatmır...”.



Əvvəldə də dediyim kimi, tamaşa qüsursuz deyildi və hətta hazırlıq müddətinin bu qədər uzunluğunu nəzərə alsaq, gərək oturub əməlli-başlı müzakirə edək. Bura aktyorların temp adı ilə bir-birinin oyununu vurmasından bir mövzu ətrafında ard-arda az qala onlarla problemin sadalanmasına və onların bəzən havadan asılı qalmasına qədər nüansları daxil edə bilərik. Hətta kommersiya filmlərində oynadığı rolların təsirindən Elşən Hacıbabayev və Araz Pirimov səhnədə bəzi “yolavermələri”ni də nəzərə almasaq, “Balaca, yaramaz məxluq” baxımlı tamaşadır. Ən azı günümüzün reallığını teatrdan “indi və burada” iş prinsipini tələb edənlər, bunu görmək istəyənlər üçün.

Sonda onu da qeyd edim ki, budəfəki səhnə-salon rabitəsində özüm üçün bir qənaəti yəqin etdim: bu günün teatrı da,  tamaşaçısı da nəyi göstərib, nəyə baxmaq istədiyini yaxşı bilir. Sadəcə, hələ ki birləşib zaman və məkan arasındakı böyük səddi yıxa bilmirlər...

**Həmidə Nizamiqızı**

Şuşanın simaları

# Fədakar maarifçi və ədəbiyyatşünas

Ömrünü xalqının maariflənməsi və ictimai-mədəni tərəqqisinə həsr edən ədib və ziyalılarımızdan biri Firidun bəy Köçərli olub. O, qırxillik ədəbi fəaliyyəti ilə böyük mütəfəkkir, dramaturq Mirzə Fətəli Axundzadənin maarifçilik ənənələrini yorulmadan davam etdirib. Azərbaycanda folklorşünaslığın yaranması, şifahi xalq ədəbiyyatı nümunələrinin, habelə milli ədəbiyyatımızın tanınan simaları və onların yaradıcılığının toplanılması və nəşri sahəsində böyük xidmətlər göstərib. "Şuşanın simaları" rubrikasında bu dəfə qala-şəhərimizdə doğulub boya-başa çatan, ilk peşəkar ədəbiyyatşünaslarımızdan olan Firidun bəy Köçərlinin 57 illik ömür yolunun bəzi səhifələrinə qısa nəzər salacağıq.

Firidun bəy Əhməd bəy oğlu Köçərli 26 yanvar 1863-cü ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini Mirzə Kərim Münşinin mədrəsəsində alır. Sonra iki il də şəhərdəki rus məktəbində oxuyur.

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının müəllimi Aleksey Çernyayevski bu təhsil ocağı üçün tələbə toplamaq məqsədilə 1878-ci ildə Şuşaya gəlir, rus məktəbində də olur. Müəllim və şagirdlərlə yaxından söhbət edir. Firidun bəyi təhsil almaq üçün özü ilə Qoriyə aparır. O, 7 il seminariyada oxuyur.

21 yaşlı Firidun bəy seminariyanın tələbəsi ikən 1884-cü ildə "Təlimi-Sokrat" əsərini yazır. Təhsilini başa vurduqdan sonra 1885-ci ildə təyinatla İrəvan gimnaziyasında işə başlayır. Burada pansion mürəbbisinin köməkçisi vəzifəsini icra etməklə yanaşı, ana dili və hüsnxət fənlərini tədris edir. A.Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türkü" ("Türk dili təlimi") adlı dərslik tərtib edir.

Mədəniyyətlə maarifi qoşa qanad hesab edən F.Köçərli 1890-cı ildə İrəvanda Mirzə Fətəlinin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyur. Bir il sonra "Təlimi-Sokrat" kitabı Bağçasarayda (Krım) "Tərcüman" mətbəəsində, 1892-ci ildə isə A.Puşkindən tərcümə etdiyi "Torçu və balıq" mənzum nağılı İrəvan şəhərində kitab halında çap olunur. M.Lermontovun "Üç xurma ağacı" və A.Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərinin tərcüməsindən ibarət kitabı Şuşada işıq üzü görür. "Tatar komediyaları" adlı ilk elmi məqaləsi "Novoye obozreniye" qəzetində dərc edilir. Pedaqoji sahədə əldə etdiyi müvəffəqiyyətə görə bir sıra təltiflərə layiq görülür.

F.Köçərli təyinat müddəti başa çatdıqdan sonra 1895-ci ildə Gürcüstana qayıdır. Qori Müəllimlər Seminariyasının Tatar (Azərbaycan) şöbəsinə Azərbaycan dili və şəriət müəllimi təyin edilir. O, pedaqoji fəaliyyətlə yanaşı, mətbuatla əməkdaşlığını daha da genişləndirir. Həmin dövrdə böyük maarifçini ərəb qrafikalı Azərbaycan əlifbasının çətinlikləri, dilimizin ifadə imkanlarını tam əhatə edə bilməməsi ilə bağlı məsələlər də düşündürürdü. Onun 1898-ci ildə yazdığı "Ərəb əlifbası və onun qüsurları" adlı silsilə məqalələri "Qafqaz" qəzetində dərc edilmişdi.



Artıq F.Köçərli elmi-mədəni mühitdə geniş tanınmağa başlamışdı və onun bu sahədəki proseslərə yanaşması müasirləri tərəfindən diqqətə alınırdı. Bu dövrdə maarifçi-pedaqoqun həyatında mühüm yenilik baş verir. 1900-cü ildə Müəllimlər Seminariyalarının Ümumdünya Paris Sərgisində Qori Seminariyasından nümayiş etdirilən eksponatlar sırasına F.Köçərlinin kitabları da daxil edilir.

Geniş tərcüməçilik fəaliyyəti də göstərən ədib Tiflisdə "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabını (1903) rus dilində çap etdirir. Həmin ildə M.F.Axundzadənin "Aldanmış kəvakib" povestini rus dilinə, A.Çexovun "At familiyası" hekayəsini isə Azərbaycan dilinə çevirərək kiçik müqəddimə ilə "Şərqi-Rus" qəzetində dərc etdirir. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasını yüksək qiymətləndirən F.Köçərli dərginin birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayır. İcmal "Tifliskiy listok" qəzetində işıq üzü görür. O, "İrşad" qəzetində dərc olunan "Bir darülmüəllimin kifayətdir" adlı məqaləsində Azərbaycanda müstəqil müəllimlər seminariyası yaradılması təşəbbüsü ilə çıxış edir. Cəlil Məmmədquluzadənin "Usta Zeynal" kitabçası haqqında eyniadlı məqaləsini "Znaniye" qəzetində dərc etdirir. M.F.Axundzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış edir. Eyni zamanda 1911-ci ildə "Mirzə Fətəli Axundov", 1912-ci ildə isə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı çap olunur. Bir il sonra "Azərbaycan ədəbiyyatı tarixi" üççildlik fundamental əsərini tamamlayır.



F.Köçərli peşəkar ədəbi tənqidçi kimi ədəbi prosesə yön verir, onun düzgün istiqamətdə inkişafına çalışırdı. Professor Xalid Əlimirzəyev yazırdı: "F.Köçərli ədəbiyyatın, sənətin ictimai-siyasi, tərbiyəvi rolunu yüksəltmək uğrunda mübarizə apararkən öz şəxsi xoşbəxtlikləri üçün xalqının, vətəninin mənafeyini satan, onun taleyi ilə oynayan, sənəti qazanc mənbəyinə çevirməyə çalışan məddah yazıçıları, şairləri də kəskin tənqid edirdi".

1910-cu ildə Qori Seminariyasında Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı olan F.Köçərli daha sonra bu şöbənin inspektoru təyin edilir. 1917-ci ildə seminariyanın Azərbaycan şöbəsinin ölkəmizə köçürülməsi ilə əlaqədar təşəbbüs göstərir. Siyasi proseslərə qoşularaq Müsavat Partiyasına üzv olur. 1918-ci ildə seminariyanın Azərbaycan şöbəsini tədris ləvazimatı və avadanlıqları ilə birlikdə Qazax şəhərinə köçürür. Bu şöbənin əsasında Qazax Müəllimlər Seminariyası yaradılır və Firidun bəy təhsil ocağının direktoru təyin olunur. Həmin ilin 17 sentyabrında seminariya fəaliyyətə başlayır.

F.Köçərli ilk respublikamız – Xalq Cümhuriyyətinin qurulmasını alqışlayır. Milli Şuranın üzvü seçilir. 1 fevral 1919-cu ildə Müsavat Partiyasının səyyar bürosu – Mərkəzi Komitəsinin təşəbbüsü ilə təşkil edilən Qazax şöbəsinə sədr seçilir. Azərbaycanda bolşeviklər hakimiyyətə gələnə qədər Qazax Müəllimlər Seminariyasına rəhbərlik edir.

1920-ci ilin 28 aprelində Azərbaycan Rusiya tərəfindən işğal olunur və ilk Cümhuriyyətimiz süqut edir. May ayında F.Köçərli və digər müsavatçılar "xalqa xəyanət", "milli nifaq törətmək", "torpaq və mülk zəbt etmək" və digər absurd ittihamlarla həbs olunurlar. Şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnmə qərarı çıxarılır və qısa zamanda hökm icra edilir. Beləliklə, milli maarifçiliyin, mədəniyyətin inkişafı yolunda yorulmadan çalışan Firidun bəy Köçərlinin də ömrü ən məhsuldar çağında yarıda kəsilir.

1925-ci ildə F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi, 1926-cı ildə isə II hissəsi çap edilir. Kitabda ilk dəfə olaraq yüzdən artıq ədib və şairin bədii irsi, böyük bir hissəsinin isə bioqrafiyası verilib. Adı keçən müəlliflərin yaradıcılıqları haqqında Firidun bəyin mülahizələri yer alıb. Uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı isə müxtəlif illərdə təkrar-təkrar çap edilib.

2013-cü ildə dövlət başçısının müvafiq sərəncamına əsasən, böyük maarifçinin 150 illiyi geniş qeyd olunub. Hazırda Respublika Uşaq Kitabxanası ədibin adını daşıyır.

**Savalan Fərəcov**

# Nazim Hikmətin 120 illiyi qeyd edilib

Yanvarın 25-də Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" zalında görkəmli türk şairi, dramaturq Nazim Hikmətin (1902-1963) anadan olmasının 120 illiyinə həsr edilmiş tədbir keçirilib. Tədbir Azərbaycan Yazıçılar Birliyi və "Luç" Ədəbi Yaradıcılıq Assosiasiyası tərəfindən təşkil olunub.



Tədbirdə "Luç" Ədəbi Yaradıcılıq Assosiasiyasının sədri, filologiya elmləri doktoru, professor Tofiq Məlikli, professor Vaqif Sultanlı, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid və başqa çıxış edənlər Nazim Hikmətin yaradıcılığından söz açıb, onun XX əsrin ən böyük şairlərindən biri olduğunu bildiriblər.

Vurğulanıb ki sağlığında Qərbdə Nazim Hikməti inqilabçı şair, kommunist hesab edirdilər və zəmanəmizin prizmasından baxanda, onu gənc yaşlarından sufizm ideyaları ilə ruhlanan, marksist ideologiyasını dəstəkləyən, faşizmi pisləyən romantik sosialist utopist adlandırmaq olar. Əqidəsinə görə şair dəfələrlə vətənində – Türkiyədə həbs olunub, ümumilikdə 17 ilini dəmir barmaqlıqlar arxasında keçirib. Əsasən sərbəst şeir, verlibr formasından istifadə edən şair öz fikrini hər zaman açıq ifadə edirdi. SSRİ-yə mühacirət edəndən sonra da o, sovet rəhbərlərinin qəzəbinə səbəb olaraq, İ.Stalinin şəxsiyyətinə pərəstiş, sosialist sistemindəki digər qüsurlar barədə mənfi fikir söyləyib.

Diqqətə çatdırılıb ki, Nazim Hikmət Azərbaycanı sevirdi və Rəsul Rza, Səməd Vurğun, Süleyman Rüstəm kimi görkəmli Azərbaycan şairləri ilə dostluq edirdi. 70-ci illərdə Bakıda Nazim Hikmətin əsərlərinin yer aldığı türk şeir antologiyası işıq üzü görüb.

Qeyd edək ki, Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesinin motivləri əsasında bəstəkar Arif Məlikov eyniadlı balet yazıb. Sovet İttifaqında ədibin bir sıra əsərləri ekranlaşdırılıb. O cümlədən "Azərbaycanfilm"də "Yaşamaq gözəldir, qardaşım!" (rejissorlar Ramiz Əsgərov, Antonis Voyazos), "Bir məhəlləli iki nəfər" (rejissorlar Əjdər İbrahimov, İlya Qurin), "Mosfilm"də türk aktyorların da iştirakı ilə "Məhəbbətim mənim, kədərim mənim" (rejissor Əjdər İbrahimov) filmləri çəkilib.

# Mikayıl Müşfiqin və Əli Kərimin şeirləri ispan dilində




İspaniyanın "Babab.Cultura de revista" elektron ədəbiyyat jurnalında görkəmli Azərbaycan şairləri Mikayıl Müşfiqin və Əli Kərimin ispan dilinə tərcümə olunmuş şeirləri dərc olunub. Şeirlər Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində yayımlanıb.

Elektron nəşrdə Mikayıl Müşfiq poeziyasından məşhur "Küləklər", "Yenə o bağ olaydı", Əli Kərimin "Qış günündə" və "Daş" şeirləri, eləcə də hər iki şair haqqında məlumat verilib. Şeirlərin ispan dilinə sətri tərcümə müəllifi Tutuxanım Yunusova, bədii tərcümə müəllifi Raul Poggi Alexandrodur.

QƏDİM İNSAN MƏSKƏNİ

# Tağlar mağara düşərgəsi

İşğaldan azad olunmuş ərazilərdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarix-mədəniyyət abidəsi var. Daha doğrusu, otuz ilə yaxın davam edən işğal zamanı erməni vandalizmi ilə üzləşmiş bu abidələrin əksəriyyətinin yalnız dağıntıları və xarabalıqları qalıb. Həmin ərazilərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilən monitorinqlər nəticəsində dövlət qeydiyyatında olan 403 tarix-mədəniyyət abidəsinə baxış olub. Dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 162 obyektin monitorinqi başa çatdırılıb...

Monitorinq edilən tarix-mədəniyyət abidələrindən biri də dünya əhəmiyyətli arxeoloji abidə kimi dövlət qeydiyyatına alınmış Tağlar mağara düşərgəsidir. Mağara düşərgəsi Xocavənd rayonunun Böyük Tağlar kəndi ərazisində, Azıx mağarasından 3 kilometr qərbdə yerləşir.

Tağlar mağara düşərgəsi Mustye mədəniyyəti kimi elmi ədəbiyyata daxil olan Orta Paleolit dövrü üçün ölkəmizdə ən yaxşı öyrənilmiş arxeoloji abidələrdən biri hesab olunur. Həmin dövrdə Azərbaycan ərazisində yaşayan qədim insanlar daha geniş ərazilərə yayılaraq Kiçik Qafqazın cənub-şərq yamaclarında, Naxçıvan, Qarabağ, Qazax bölgələrində məskən salıblar. Arxeoloqlarımız Naxçıvanda Qazma, Qazaxda Damcılı və Qarabağda Tağlar mağaralarında Orta Paleolit dövrünə aid zəngin maddi mədəniyyət nümunələri aşkar edərək öyrəniblər.





Tağlar mağara düşərgəsində 1963-1978-ci illərdə arxeoloqlar Məmmədəli Hüseynov və Əsədulla Cəfərov tərəfindən tədqiqat işləri aparılıb. Bu zaman altı mədəni təbəqə aşkar olunub. Mustye dövrünə aid olan ikinci-altıncı təbəqələr maddi mədəniyyət qalıqları ilə daha zəngin olub. Qazıntı zamanı xeyli daş məmulatı və fauna qalıqları aşkarlanıb. Məlum olub ki, Tağlar mağarasının sakinləri başlıca olaraq maral, dağkeçisi ovlayıblar. İkinci təbəqədə maral sümükləri ilə bərabər qaban, ayı, porsuq sümüklərinin tapılması ərazinin həmin dövrdə meşəlik olmasından, 3-cü və 4-cü təbəqələrdə tapılan keçi sümükləri isə quru iqlim şəraitindən xəbər verir. Mağara sakinləri, əsasən şist, çaxmaqdaşı və obsidiandan istifadə ediblər. Aparılan arxeoloji qazıntılar zamanı 8 mindən artıq daş məmulatı və 600 mindən çox ovlanmış heyvan sümükləri tapılıb. Tağlar mağara düşərgəsində aparılan arxeoloji tədqiqatlar ölkə ərazisində Mustye mədəniyyətinin özünəməxsus xüsusiyyətləri olduğunu göstərib.

İşğal dövründə Ermənistan tərəfindən digər tarix-mədəniyyət abidələrimiz kimi Tağlar mağarasında da qanunsuz qazıntı işləri aparılıb, arxeoloji abidəyə müdaxilələr olunub.

Hazırda isə işğaldan azad edilmiş ərazilərimizdə yerləşən tarix-mədəniyyət abidələrinin qorunması, bərpa və konservasiyası istiqamətində mühüm işlər həyata keçirilməkdədir. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də elə Tağlar mağara düşərgəsi ilə bağlıdır. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Xocavənd rayonunda yerləşən "Azıx-Tağlar mağara düşərgələri" Dövlət Tarix-Arxeoloji Qoruğunun təsis edilməsi ilə bağlı müvafiq addımlar atılır.

**Fariz Hüseynli**

ORTA ƏSR YAŞAYIŞ YERI

# "Şəhərgah"ın əhatəli tədqiqata ehtiyacı var

*əvvəli səh. 1-də*

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəis müavini Vaqif Alıyev abidə haqqında danışarkən bildirib ki, 50 hektara yaxın sahəni əhatə edən "Şəhərgah" yaşayış yeri Bakı-Kürdəmir avtomobil yolundan 14 kilometr cənubda, Girdiman çayının Kür çayına töküldüyü ərazidən təqribən 8-10 kilometr şərqdə düzənlik ərazidədir. Yaxın keçmişə qədər "Şəhərgah"ın şimal tərəfindən Qarasu çayı keçirmiş. 2010-cu ildə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən ərazidə kəşfiyyat xarakterli axtarışlar aparılıb. Qazıntı işləri ilə paralel olaraq ərazinin topoqrafiyası, ətrafdakı yaşayış məntəqələri ilə mümkün əlaqələri öyrənilib.

Tarixən insanlar yaşayış məntəqələri salarkən su mənbələri olan ərazidə yer seçirdilər. Bu cəhətdən "Şəhərgah"ın Kür, Girdiman və Qarasu çaylarının qovşağında salınması təsadüfi deyil.

V.Aliyev qeyd edib ki, ötən əsrin 50-ci illərindən etibarən şərq-qərb istiqamətində qazılmış dərin kanal və şimal-cənub istiqamətində qazılmış xəndəklər ərazini bir neçə hissəyə bölüb. Həmin kanal və xəndəklər qazılarkən və sonralar onların içərisi təkrar-təkrar təmizlənərkən "Şəhərgah"ın tarixini özündə əks etdirən tikinti və istehsalat qalıqları, habelə digər maddi mədəniyyət nümunələri üzə çıxıb. Kanal və xəndəklərdən XII-XIII əsrlərə aid çoxlu maddi mədəniyyət nümunələri toplanılıb.



Ekspedisiya tərəfindən ərazinin yerüstü parametrləri diqqətlə öyrənildikdən sonra abidənin cənub-qərb tərəfində, kanal keçən ərazidən təqribən 50-60 metr şimalda yoxlama qazıntısı qoyulub. Yerüstü materialların çoxluğu və rəngarəngliyi həmin ərazidə tikinti və istehsalat ocaqlarının sıxlığından xəbər verib. Öyrənilən sahədə dərinlik 35-40 santimetrə çatdıqda ayrı-ayrı nöqtələrdə bişmiş kərpicdən hörülmüş divar qalıqları üzə çıxıb. Qazıntı sahəsi tədricən divar qalıqlarının çıxdığı istiqamətlərə doğru genişləndirilərək 160 kvadratmetrə çatdırılıb. Dərinə düşdükcə tikintinin ümumi mənzərəsi də tam şəkildə aydınlaşıb. Nəticədə 5 otaq, 9 vanna, 2 buxarı, 1 ocaq-kürə və 3 qapı yeri olmaqla hamam kompleksi aşkar edilib. Kiçikmiqyaslı arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət qalıqları Kürdəmir Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilib. Tapıntılar əsasən daş, dəmir, mis, şüşə və gildən hazırlanmış əmək alətləri, məişət və bəzək əşyalarından ibarətdir. "Şəhərgah"ın bütün əlamətlərinə görə Azərbaycanın mühüm Orta əsr şəhərlərindən biri olduğu şübhəsizdir...

# “Böyük qayıdış” kitabının təqdimatı keçirilib

Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və AMEA Tarix İnstitutunun birgə layihəsi olan “Böyük qayıdış” kitabının təqdimatı keçirilib.

Mərasimdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov diqqətə çatdırıb ki, kitab Vətən müharibəsində Zəfərdən sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfərlərindən bəhs edir. Qeyd edib ki, ölkə başçısının bu səfərlər zamanı hər bir çıxışı dərin elmi-tarixi əhəmiyyət daşıyır. Vurğulanıb ki, bu gün azad edilmiş torpaqlarda aktiv bərpa prosesi aparılır və Azərbaycan özünün yeni və şanlı tarixini yazır.




Tədbirdə paytaxt rayonlarının icra hakimiyyətlərinə Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə Qarabağ həqiqətləri, şanlı Qələbəmiz, Prezident İlham Əliyevin siyasi və sərkərdəlik fəaliyyətinin gənclər arasında təbliğinin gücləndirilməsi ilə bağlı tövsiyələr verilib.

AMEA Tarix İnstitutunun direktoru Kərim Şükürov, Milli Məclisin deputatları Aydın Hüseynov və Azər Badamov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, qazi Famil Məlikov və digər çıxış edənlər kitabın əhəmiyyətindən söz açıblar. Nəşrin işğaldan azad edilən ərazilərdəki bərpa işləri, yeni infrastrukturun yaradılması və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdışı proseslərinin öyrənilməsində mühüm rol oynayacağı vurğulanıb.

# Yaşamı mənalı edən insanlarla çalışmaq xoşbəxtlikdir

İnsan özü-özünü formalaşdırır. Əvvəl var olub, sonra özünü mövcud edən yalnız insandır. Məsələn, bir masa nəyə yarayacağı, necə olacağı əvvəldən düşünülərək var edilir (düzəldilir). Masanın özü var olmasından əvvəldir. Tək insandır ki, əvvəl var olur, sonra özünü, necə olacağını, nəyə yarayacağını özü əməlləriylə göstərir. İnsan mövcudluqdan əvvəl təyin oluna bilməz. Ancaq var olduqdan sonra, həm də özünü necə etsə, elə olacaq.

Platona görə, insanlarda üç yaşam tərzi vardır: həzz (bitkisəl) yaşamı, şərəf, şöhrət (toplumsal) yaşamı, hikmət (teoretik) yaşamı. Aristotel müəlliminin fikirlərini davam etdirərək Yunanıstanda keçirilən olimpiadalara gələn insanları üç qismə ayırırdı: həzz üçün gələnlər, yarar, mənfəət üçün gələnlər və sadəcə, olanları dəyərləndirmək, nəzər yetirmək, tamaşa etmək üçün gələnlər. Sonuncular bioteorikos – nəzəriyyəçilər, hikməti sevənlər idilər.

Dünya yaşamını mənalı edən belə insanlardır. Onlar sıralarımızda davranışlarıyla çoxlarına nümunə ola biləcək aydınlardır. Bu gün xeyir əmələ, doğru sözə həmişəkindən daha çox ehtiyacımız var. Həyatımızı mənalı edən, çoxsaylı ağrı-acıları yüngülləşdirən, yaşam labirintlərinin çözümünü asanlaşdıran hikmət sahiblərini tanımalı və tanıtmalıyıq. Ən azı cəmiyyəti sağlamlaşdırmaq, yaşam həvəsini artırmaq üçün bunu etməliyik. Əslində, onların buna ehtiyacı yoxdur. Toplumun və onu təşkil edən fərdlərin buna ehtiyacı var.



AMEA Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri, sənətşünaslıq doktoru, professor Rəna Abdullayeva bu elm ocağında insanlıq aləminə işıqsaçan alimlərdən biridir. Yunus Əmrə deyirdi: “Elm elmi bilməkdir, elm kəndin (özünü) bilməkdir. Sən kəndini bilməzsən, bu necə bir bilməkdir”. Nəsnələrin insan zehnindəki təsvirinə elm deyilir. Alimlik zaman və məkana bağlıdır. Detalların (duyğusal) təsbiti və təkrarı adamı alim edər. Özünü bilmək irfandır. İrfan görgüyə əsaslanır və arif adlandırılır.

Rəna xanım alim olmaqla yanaşı, həm də arifdir. Yüksək elmi nailiyyətləri ilə bərabər insani keyfiyyətləri onu hər zaman arzuedilən edir. Xüsusilə kollektivdə anlaşılmazlıq olanda ilk yada düşən o olur. Bir yerdə oxumuşdum ki, insanlar çətinə düşəndə iki yerə: Allaha və hikmət sahiblərinə, müdriklərə müraciət edirlər. Belə müdriklərin sıralarımızda olması çox yaxşı haldır. Bəzən bunun fərqində olmasaq belə, mədəni insanların olduğu mühitdə pozitiv düşüncələr, həyat eşqi xırda çatışmazlıqları görünməz edir.

Professor Rəna Abdullayeva institutumuzda Kulturologiya və incəsənətin nəzəriyyəsi şöbəsinə rəhbərlik edir. Musiqinin funksiyasının estetik təhlili və Azərbaycan estetik fikir tarixində tədqiq təcrübəsi, informasiya mədəniyyətində bədii üslub problemi mövzularında tədqiqatların, ölkəmizdə və xaricdə çapdan çıxmış yüzdən çox elmi əsərin müəllifidir.

Onun rəhbərlik etdiyi şöbə bütün sahələr üzrə nümunəvi sayıla bilər. Burada çalışan əməkdaşlar fəaliyyətlərini sevgi, qayğı, səmimiyyət üzərində qurmuşlar, vəzifədən çox insanlığa görə tanınırlar. Hər kəs öz işini sevərək icra edir. Əslində, bu gün bizə ən çox lazım olan da budur. Azərbaycan çiçəklənməkdədir. Xüsusilə torpaqlarımızın işğaldan azad edilməsi hər birimizə əlavə ruh verir. Şöbənin fəaliyyəti müvafiq elmi istiqamətlə yanaşı, həm də əldə edilmiş tarixi uğura elm nəzərindən töhfə verməkdir. 44 günlük Vətən müharibəsindən sonra qısa müddətdə şöbə əməkdaşlarının ərsəyə gətirdiyi işlər – dosent N.Abbasovun “Qarabağın qara bağı” və L.Əliyevanın “Qarabağ münaqişəsi: Azərbaycanın milli mədəni irsi” monoqrafiyaları, eləcə də çoxsaylı elmi məqalələr bu yolda vətəndaş borcunun ifadəsidir. Əlbəttə, belə müsbət nəticələrdə bütövlükdə institut rəhbərliyinin də payı vardır. AMEA-nın müxbir üzvü, Memarlıq və İncəsənət İnstitutunun baş direktoru Ə.Salamzadənin kollektivdə yaratdığı elmi-yaradıcı mühit təkcə bir şöbənin deyil, digər şöbələrin də fəaliyyətində uğurlu nəticələrə mühüm zəmindir.

Sənətşünaslıq doktoru, professor Rəna Abdullayevanın ad günü yaxınlaşmaqdadır. Belə aydınların varlığı sağlam cəmiyyətin, işgüzar kollektivin mövcudluğunu ifadə edir. İnsanların həyatına sevinc, əzm, mübarizlik və yaradıcılıq enerjisi qatır. Rəna xanıma institut kollektivi adından ən xoş arzularımızı bildiririk. Hər zaman sağlam, gümrah və aramızda olmasını arzu edirik. Onun ölkəmizin mühüm elm ocaqlarından olan AMEA Memarlıq və İncəsənət İnstitutunun davamlı inkişafını zənginləşdirən töhfələri bu arzunun səmimiliyinin ifadəsidir. Dəyərli insanlar haqqında layiq olduqları, qəlbimizin dərinliyində çağlayan fikirləri ifadə etməyə bəzən sözün gücü çatmır. Rəna xanım, çox yaşayın!

**Namiq Abbasov**
**Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı, kulturologiya üzrə fəlsəfə doktoru**

# Peşəkarlığın zirvəsində

Azərbaycan instrumental muğam ifaçılığı XIX-XX əsrlərdə ən böyük inkişaf mərhələsinə yüksəlmişdir. Bu dövrdə artıq instrumental muğamlar xalq arasında geniş yayılmış və çox istedadlı ifaçılar yetişmişdir. Bu tükənməz mənbədən qidalanan Azərbaycan ifaçılıq məktəbini keçən Arif Əsədullayev dünyanın 20-dən artıq ölkəsində xalq musiqisini uğurla təmsil etmiş, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, İslam Rzayev, Elmira Rəhimova, Səkinə İsmayılova, Ağaxan Abdullayev və başqa tanınmış ifaçıları müşayiət edərək, ulu kamança alətinin ustad əlində nəyə qadir olduğunu göstərməyə çalışmışdır.

Zəngin ifaçılıq təcrübəsi olan Arif Əsədullayev 1967-ci ildən 1997-ci ilə qədər Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində müəllim işləyib, həmin ildən bu günə kimi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının professoru kimi pedaqoji fəaliyyətini davam etdirir. Peşəkar ifaçı və təcrübəli pedaqoq bir çox tədris proqramlarının, elmi məqalələrin, “Çahargah” adlı tədris videofilminin (1999), Əməkdar müəllim, ustad xanəndə Nəriman Əliyevin 70 illiyinə həsr olunmuş kompakt diskin müəllifidir. O, Azərbaycanın yeddi əsas instrumental muğamını – “Rast”, “Şur”, “Segah”, “Çahargah”, “Bayatı-Şiraz”, “Şüştər”, “Humayun”u ilk dəfə olaraq nota yazmışdır. Təhsil Nazirliyi Elmi-metodiki şurasının təsdiq etdiyi bu instrumental dərs vəsaitlərinin redaktoru müəllifin həyat yoldaşı, Xalq artisti, professor Şəfiqə Eyvazovadır. Muğam sənətinin qorunub saxlanılmasında müstəsna xidmətləri olan Arif Əsədullayevin nota aldığı bu muğamlar müəllim və tələbələrin, musiqi ictimaiyyətinin, bəstəkar və musiqişünaslıq ixtisasları üzrə təhsil alan tələbələrin yararlana biləcəyi çox lazımlı tədris vəsaitidir. Nota salınmış bu muğamlar muğamat elminin tədqiqi və təbliği ilə məşğul olanlar və ifaçılar üçün əsl istinad mənbəyidir. Bundan başqa, Arif Əsədullayev xarici ölkə bəstəkarlarının kamança ilə fortepiano üçün işlənmiş irihəcmli əsərlərinin, Xalq artisti, professor Eldar İsgəndərovla birlikdə “7 klassik Azərbaycan muğamı” solo violonçel üçün işlənmiş dərs vəsaitinin, “Əhsən Dadaşovun rəngləri” metodik tövsiyə, “İnstrumental muğamlar və onların ifaçılıq məziyyətləri” monoqrafiyasının müəllifidir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və dəstəyi ilə nəşr edilmiş



“Azərbaycan muğamı” toplusunda 7 əsas muğamın notları da təqdim olunmuşdur. Sevindirici haldır ki, Arif Əsədullayev tərəfindən nota alınmış qədim muğamların notları gələcək nəsillər tərəfindən daim öyrəniləcək və əsrlərlə yaşayacaq.

Bu günlərdə 73 yaşını qeyd edən Arif Əsədullayevin ömür səhifəsini vərəqlədikcə onun ömrünün 50 ildən çox hissəsini kamança sənətinin təbliğinə və pedaqoji fəaliyyətə sərf etdiyini görürük. Ürəyi Vətən üçün döyünən sənətkarımızın zəngin fəaliyyəti haqqında böyük bəstəkarımız Arif Məlikovun sözlərini yada salmaq istərdim: “Arif Əsədullayevin gördüyü iş təkcə sənətşünaslıq baxımından deyil, bir vətəndaşlıq xidməti kimi də çox mühümdür. Muğamların nota alınaraq nəşr edilməsi, onların milli mənsubluğu ilə bağlı sərvətimizə uzanan qərəzli, xain əllərin birdəfəlik kəsilməsi deməkdir”.

Arif Əsədullayev böyük bəstəkara söz verəndən sonra 12 muğamı – “Mahur-hindi”, “Orta mahur”, “Bayatı-Qacar”, “Dügah”, “Vilayəti-Dilkeş”, “Qatar”, “Şahnaz”, “Nəva”, “Rahab”, “Bayatı-kürd”, “Dəşti”, “Xaric segah” muğamlarını da nota yazıb. Bu da Arif müəllimin öz işinə, peşəsinə olan məsuliyyətindən irəli gəlir. Onun “Azərbaycanın klassik 12 instrumental muğamı” kitabı işıq üzü görüb. Arif müəllim etiraf edir ki, muğamları nota salmaq həm maraqlı, həm də çox çətin işdir. Onu da qeyd etmək çox vacibdir ki, “Rast” ailəsinə daxil olan muğamlar qətiyyən eyni fəlsəfi fikri daşımır. “Rast” muğamı dinləyicidə nəsihət hissi aşılayırsa, “Mahur-hindi” mərdlik, döyüşkənlik, müharibə əhvalını nümayiş edir, qəhrəmanlıq ruhunu yaşadır. “Orta mahur” xalq qəhrəmanının obrazını yaradır, onun əzəmətini, mübarizliyini, yenilməzliyini dinləyici qarşısında tərənnüm etdirir. Hər hansı bir muğam dəsgahını öz səs sırasında ifa etmək lazımdır və vacibdir. Bu o deməkdir ki, hər hansı bir muğam dəsgahı temperasiya olunmuş səs yüksəkliyində (si kökündə), öz səs sırasında ifa olunmalıdır.

Arif Əsədullayev qızğın iş rejiminə baxmayaraq, bu gün də elmi fəaliyyətini davam etdirir, BMA-nın Elmi-tədqiqat laboratoriyasının əməkdaşları ilə bərabər “Azərbaycanın xalq çalğı aləti – kamança” adlı monoqrafiya, “Azərbaycan muğam ensiklopediyası” məcmuəsi üzərində işləyir. Arif müəllimin gələcək planları da çoxdur. O, “Çahargah” instrumental muğamı” adlı seminar keçirmək və 22 il əvvəl çəkdiyi “Çahargah” muğamı haqqında tədris filmi”ni nümayiş etdirmək fikrindədir.

Sonda fikrimi Ü.Hacıbəyli adına BMA-nın rektoru, professor Fərhad Bədəlbəylinin Arif Əsədullayev haqqında dediyi sözlərlə bitirmək istəyirəm: “Qədim tarixə malik Azərbaycan musiqi təfəkkürünün məhsulu olan, peşəkar xalq musiqisi ifaçılarının əməyi nəticəsində şifahi ənənəli professional formaya yiyələnən Azərbaycan instrumental muğamlarını dəqiqliklə nota salan Arif Əsədullayev xalqımızın musiqi mədəniyyətinin ruhunu tutmuş və bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlmişdir. Mən mübaliğəsiz deyirəm ki, Üzeyir bəyin arzularının biri olan muğamlarımızın temperasiya olunmuş səslərlə, 12 pilləli not sistemində yazıya salınması ilə Arif Əsədullayev ilk ifaçıdır ki, öz təmənnasız zəhməti ilə şifahi ənənəli Azərbaycan muğamları üçün Avropaya pəncərə açmışdır. Artıq Avropa və eləcə də bütün dünya musiqiçiləri Azərbaycan instrumental muğamlarının not yazısı ilə tanış olub, istədikləri musiqi alətində onu ifa edə bilərlər. Müəllifin bu fundamental işindən elmi məqsədlər üçün istifadə etmək məqsədəuyğundur. Azərbaycan klassik instrumental muğamlarını nota almaqla peşəkarlığın zirvəsində duran Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Arif Əsədullayev professional muğam bilicisi, böyük pedaqoq və sözün əsl mənasında, vətənpərvər insandır...”.

**Nigar Bayramova**
**Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi, doktorant**

## Xatirə təqvimi — 29 yanvar – 1 fevral

### Azərbaycan

**29 yanvar 1926** – Xalq artisti, sirk ustası, jonqlyor, illüzionist Xosrov Abdulla oğlu Abdullayev (1926 – 31.3.1980) Şamaxıda anadan olub. “Uşaqlığın son gecəsi”, “O qızı tapın” və s. filmlərdə çəkilib.

**29 yanvar 1927** – Məşhur balerina, Azərbaycanın və SSRİ-nin Xalq artisti Leyla Məhəd qızı Vəkilova (1927 – 20.2.1999) anadan olub. Opera və Balet Teatrının aparıcı balet artisti olub. 1953-cü ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyib, tədris ocağına rəhbərlik edib.

**29 yanvar 2011** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (18.2.1947 – 2011) vəfat edib. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

**29 yanvar 2016** – Xalq artisti, bəstəkar Musa Abdulla oğlu Mirzəyev (26.1.1933 – 2016) vəfat edib. Simfoniya, simfonik orkestr üçün əsərlər, kantata, vokal silsilələri, mahnıların müəllifidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**30 yanvar 1920** – Əməkdar incəsənət xadimi, kinooperator Teyyub Mirzəhəsən oğlu Axundov (1920 – 3.12.1991) anadan olub. “Onu bağışlamaq olarmı?”, “Sehrli xalat”, “Dağlarda döyüş”, “Tütək səsi” və s. filmlərin operatorudur.

**30 yanvar 1930** – Bakı Fəhlə Uşaq Teatrının (indiki Gənc Tamaşaçılar Teatrı) Azərbaycan bölməsi fəaliyyətə başlayıb. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1928-ci il 5 oktyabr tarixli qərarına əsasən, öncə teatrın rus bölməsi yaradılmışdı. 1936-cı il iyunun 18-də Gənc Tamaşaçılar Teatrı adlandırıldı.

**30 yanvar 1935** – Əməkdar rəssam Gennadi Demyanoviç Brijatyuk (1935 – 11.6.2008) Gəncə şəhərində anadan olub. Yaradıcılığında gül təsvirləri, Abşeronla bağlı peyzajlar, qadın portretləri daha çox yer tutur.

**30 yanvar 1936** – Əməkdar rəssam Əli Verdiyev (1936 – 8.5.2020) Lənkəranda anadan olub. Portret, mənzərə, natürmort və digər janrlarda əsərlərin, çoxfiqurlu tabloların müəllifidir: “Babəkin savaşı”, “Hüseyn Cavid”, “Qızıl toy” və s.

**30 yanvar 1936** – Əməkdar elm xadimi, ədəbiyyatşünas Araz Məmməd Arif oğlu Dadaşzadə (1936 – 4.11.1990) anadan olub.

**30 yanvar 1948** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (1948 – 8.10.2010) Bakıda doğulub. Akademik Musiqili Teatrda, Mahnı Teatrında çalışıb.

**30 yanvar 1943** – Tanınmış aktyor Ələsgər Əli oğlu İbrahimov (1943 – 10.3.1983) anadan olub. “İnsan məskən salır”, “Yeddi oğul istərəm”, “Torpaq. Dəniz. Od. Səma.” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**31 yanvar 1879** – Tanınmış satirik şair Səməd Mənsur (Səməd Hacı Əhməd oğlu Kazımov; 1879 – 3.1.1927) Bakının Əmircan kəndində doğulub. “Molla Nəsrəddin”, “Şeypur” və s. jurnallarda şeirləri dərc edilib. “Səfa” cəmiyyəti nəzdindəki teatr üçün pyeslər yazıb, tərcümələr edib.

**31 yanvar 1884** – Görkəmli ictimai-siyasi xadim, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884 - 6.3.1955) Bakının Novxanı kəndində doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banisidir, Cümhuriyyətin süqutundan sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib, jurnal və qəzetlər nəşr etdirib. “Çağdaş Azərbaycan ədəbiyyatı”, “Çağdaş Azərbaycan tarixi”, “Azərbaycan şairi Nizami” və s. əsərlərin müəllifidir. Məzarı Ankaradadır.

**31 yanvar 1903** – Əməkdar rəssam, tanınmış boyakar və qrafik Ələkbər Ələsgər oğlu Rzaquliyev (1903 – 31.1.1974) Bakıda anadan olub. “Köhnə Bakı” silsiləsi, “M.Ə.Sabir”, “Çaybecərənlər” və s. linoqravüraların müəllifidir. 30-40-cı illərdə repressiyaya məruz qalıb, həbs və sürgün edilib.

**31 yanvar 1915** – Xalq artisti Vera Karlovna Şirye (1915 – 5.5.2003) Bakıda anadan olub. 1933-cü ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub, “İstiqlal” ordeni (2000) ilə təltif olunub.

**31 yanvar 1918** – Xalq artisti Konstantin Nikolayeviç Bataşov (1918-1991) Tiflisdə doğulub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**31 yanvar 1924** – Şair, Əməkdar incəsənət xadimi Əli Tudə (Əli Əliqulu oğlu Cavadzadə; 1924 – 26.2.1996) Bakıda doğulub. 1940-cı illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatının öncüllərindən olub.

**31 yanvar 1963** – Görkəmli aktyor, SSRİ Xalq artisti Ələsgər Hacıağa oğlu Ələkbərov (26.3.1910 – 1963) vəfat edib. 1933-cü ildən Akademik Dram Teatrında fəaliyyət göstərib. Filmlərdə (“Fətəli xan”, “Böyük dayaq” və s.) unudulmaz obrazlar yaradıb.

**1 fevral 1935** – Yazıçı-publisist Nazim Sadiq oğlu İbrahimov (1935 – 1.9.2019) Bakıda doğulub. Poliqrafiya və Kitab Ticarəti Komitəsinin sədri, “Azərbaycan” nəşriyyatının baş direktoru işləyib. Ali Sovetin deputatı, Yazıçılar Birliyinin sədr müavini olub.

**1 fevral 1948** – Əməkdar artist Əli Fərman oğlu Allahverdiyev (1948 – 15.6.2010) Samux rayonunda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**1 fevral 2004** – Xalq artisti, rejissor, aktyor Lütfi Şahbaz oğlu Məmmədbəyov (6.2.1927 - 2004) vəfat edib. Televiziya tamaşalarına quruluş verib. “Qızmar günəş altında”, “Səhər”, “Sehrli xalat” və s. filmlərdə çəkilib.

### Dünya

**29 yanvar 1860** – Rus yazıçısı və dramaturqu Anton Pavloviç Çexov (1860 – 15.7.1904) anadan olub. Əsərləri: “Qağayı”, “Albalı bağı”, “Vanya dayı”, “Üç bacı” (pyeslər), “6 nömrəli palata”, “Mujiklər” (povestlər), “Buqələmun”, “Qılaflı adam” (hekayələr) və s.

**29 yanvar 1866** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1915) Romen Rollan (Romain Rolland; 1866 – 30.12.1944) anadan olub. Əsərləri: “Jan-Kristof” (10 kitabdan ibarət roman), “Canavarlar”, “İdrakın təntənəsi”, “Danton” pyesləri və s.

**30 yanvar 1720** – İtalyan rəssam, Venesiya məktəbinin nümayəndəsi Bernardo Belotto (Bernardo Francesco Paolo Ernesto Bellotto; 1720-1780) anadan olub.

**30 yanvar 1923** – Kinorejissor, SSRİ Xalq artisti Leonid Qayday (1923 – 19.11.1993) anadan olub. Populyar sovet kinokomediyalarının (“I əməliyyatı”, “Qafqaz əsiri”, “Brilyant əl”, “İvan Vasilyeviç peşəsini dəyişir” və s.) müəllifidir.

**30 yanvar 1928** – Amerika blüz musiqisinin tanınmış simalarından olan müğənni Rut Braun (Ruth Brown; 1928-2006) anadan olub.

**31 yanvar 1797** – Avstriya bəstəkarı Frans Şubert (Franz Peter Schubert; 1797-1828) anadan olub. “Alfonso və Estrella” operası, simfoniya, mahnı və romansların müəllifidir.

**31 yanvar 1921** – Amerika opera müğənnisi, aktyor Mario Lansa (Mario Lanza – əsl adı Alfredo Arnoldo Cocozza; 1921-1959) anadan olub.

**31 yanvar 1924** – Gürcü kinorejissoru, SSRİ Xalq artisti Tengiz Abuladze (1924-1994) anadan olub. Filmləri: “Mən, nənəm, İliko və İllarion”, “Arzu ağacı”, “Tövbə” və s.

**1 fevral 1895** – Amerika kinorejissoru Con Ford (John Ford – John Martin Feeney; 1895-1973) anadan olub. 4 dəfə “Oskar” mükafatına layiq görülüb.

**1 fevral 1999** – Məşhur türk musiqiçisi, bəstəkar Barış Manço (2.1.1943 – 1999) vəfat edib. Türkiyədə rok musiqisinin öncüllərindən biridir. 200-dən çox mahnı yazıb. Hazırladığı televiziya proqramları ilə bir çox ölkələrdə səfərdə olub.

**Hazırladı: Vüqar Orxan**

№7-8 (1881)
28 yanvar 2022
www.medeniyyet.az

# "Birlik ölkələri xalqlarının musiqi folkloru"

## Moskvada keçirilən sərgidə Azərbaycan da təmsil olunub

Azərbaycan Moskvada keçirilən "Birlik ölkələri xalqlarının musiqi folkloru" adlı sərgidə təmsil olunub.

2022-ci il Müstəqil Dövlətlər Birliyində (MDB) "Xalq yaradıcılığı və mədəni irs ili" elan edilib. Bu barədə qərar 2021-ci ilin 12 noyabrında MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında qəbul olunub. İclasda bununla bağlı 2022-ci ildə tədbirlərin keçirilməsi üzrə plan layihəsinin təsdiq ediləcəyi gözlənilir.

Tematik il çərçivəsində MDB-yə üzv ölkələrdə xalq sənəti və folkloruna həsr olunan çoxsaylı layihə və tədbirlər planlaşdırılıb.



Bu qəbildən ilk tədbir kimi Moskvada Rusiya Dövlət Kitabxanası, MDB ölkələrinin milli diasporları, o cümlədən "Azərbaycan Konqresi"nin Moskva regional təşkilatının iştirakı ilə hazırlanmış "Birlik ölkələri xalqlarının musiqi folkloru" adlı sərgi açılıb.

Burada MDB ölkələri xalqlarının musiqi folklorunun parlaq nümunələri sərgilənir. Sərgidə mövzu üzrə Azərbaycanda nəşr olunan kitablar və milli musiqi alətləri də nümayiş etdirilir.

Ekspozisiyanın açılışında azərbaycanlı rəqqaslar "Naz eləmə", "Uzundərə" milli rəqslərini ifa edib.

Rusiya Dövlət Kitabxanasının prezidenti Viktor Fyodorov çıxışında müxtəlif xalqların yaxınlaşmasına və bir-birilərini daha yaxşı tanımağa şərait yaradan layihənin əhəmiyyətini qeyd edib.

# Türk dünyası üçün ortaq dərsliklərlə bağlı müzakirə



Beynəlxalq Türk Akademiyasının (BTA) vitse-prezidenti Füzuli Məcidli Türkiyə milli təhsil nazirinin müavini Petek Aşkar ilə görüşüb.

BTA-dan bildiriblər ki, söhbət zamanı Türk dünyasının elmi inteqrasiyasına yönəlmiş birgə layihələr, əməkdaşlığın daha da gücləndirilməsi yolları müzakirə olunub. Xüsusilə məktəblilər üçün ortaq tarix, ədəbiyyat və coğrafiya dərslikləri üzrə ekspert komissiyasının yekun iclasına hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, mənzil-qərargahı Qazaxıstanın paytaxtı Nur-Sultanda yerləşən Beynəlxalq Türk Akademiyasının Elmi Şurasına hazırda Türkiyə Cümhuriyyəti Milli Təhsil Nazirliyi sədrlik edir.

### "NİZAMİ GƏNCƏVİ İLİ"NİN YEKUNLARI

# Özbəkistan kitabxanalarına nəşrlər hədiyyə olunub

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) tərəfindən Ə.Nəvai adına Özbəkistan Milli Kitabxanası, Özbəkistan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Biruni adına Şərqşünaslıq İnstitutunun, M.Uluqbəy adına Özbəkistan Milli Universitetinin, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kitabxanalarına Nizami Gəncəvi və Əlişir Nəvai irsi ilə bağlı, habelə Azərbaycan tarixi və ədəbiyyatına dair zəngin kitab kolleksiyası hədiyyə edilib.



Xatırladaq ki, Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunan 2021-ci ildə Özbəkistanda da Əlişir Nəvainin 550 illiyi qeyd edilib. Ötən il Türk dünyasının iki mütəfəkkir şairi – Nizami və Nəvainin yaradıcılığından bəhs edən kitablar da işıq üzü görüb.

Sözügedən kolleksiyaya AMM-in layihəsi ilə özbək dilində nəşr olunmuş Nizami Gəncəvinin "Xəmsə"si, Azərbaycan və özbək dillərində çap edilmiş "Əlişir Nəvainin hikmətləri" kitabı, habelə hər iki şairin irsinə dair qiymətli nəşrlər, monoqrafiyalar yer alıb.

Bundan başqa, özbək dilinə tərcümə olunmuş Azərbaycan poeziyası antologiyası, Azərbaycan şair və yazıçılarının əsərləri, habelə azərbaycanca-özbəkcə, özbəkcə-azərbaycanca lüğət və danışıq kitabçası, Qarabağ münaqişəsi, Xocalı soyqırımı mövzusunda nəşrlər hədiyyə olunub.

AMM-dən verilən məlumata görə, Nizami Gəncəvinin özbək dilində nəşr olunmuş "Xəmsə"si, habelə dahi Azərbaycan şairi haqqında özbək alimlərinin monoqrafiyaları Səmərqənd, Buxara, Cizzax, Nəvai, Nukus, Urgənc, Fərqanə, Termez universitetlərinin kitabxanalarına göndəriləcək.

# Azərbaycan-Gürcüstan birgə səyahət layihəsi

Yanvarın 26-da Tbilisi şəhərində Dövlət Turizm Agentliyi və Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi arasında turizm əlaqələrinin inkişafı ilə bağlı işgüzar görüş keçirilib.

Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Mariam Kvirivişvilinin iştirakı ilə turların və məhsulların yaradılması üzrə hazırlanan "Azərbaycan-Gürcüstan birgə səyahət layihəsi" barədə müzakirələr aparılıb.

Dövlət Turizm Agentliyindən bildirilib ki, müzakirələrdə Azərbaycan və Gürcüstanın müəyyən hədəf bazarlar üçün müştərək marketinq və təbliğat kampaniyası aparmasının məqsədəuyğunluğu da vurğulanıb. İki ölkə arasında turizm və mülki aviasiya sahəsində əməkdaşlığın prioritetləri, pandemiya ilə mübarizə tədbirləri çərçivəsində turizmin bərpası və inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

Layihəyə əsasən, planlaşdırılan birgə turların əsas hədəfi Avropanın bəzi ölkələri ilə yanaşı, Çin, Yaponiya, İndoneziya, Malayziya, ABŞ və Kanadadan daha çox uzunmüddətli səyahətə üstünlük verən turistlər olacaq.

Həmin gün Tbilisidəki "Azerbaijan.Travel" qonaq mərkəzində yerli turoperatorlar üçün "Azərbaycan-Gürcüstan birgə səyahət layihəsi"nin təqdimatı keçirilib. Gürcüstan paytaxtında "Azerbaijan.Travel" qonaq mərkəzi 2019-cu ildən fəaliyyət göstərir.

### "EUROVİSİON – 2022"

# Ölkəmiz ikinci yarımfinalda iştirak edəcək

"Eurovision – 2022" mahnı müsabiqəsi bu il mayın 10-dan 14-nə qədər İtaliyanın Turin şəhərində keçiriləcək. Builki yarışmanın sloqanı "The Sound of Beauty" ("Gözəlliyin səsi") olub. Loqo isə səs dalğaları ilə hazırlanıb.

66-cı dəfə keçiriləcək yarışmada Azərbaycan da iştirakını təsdiqləyib. Hazırda müsabiqədə səsləndiriləcək mahnının seçim turu başlayıb.

Bu arada "Eurovision – 2022" mahnı müsabiqəsində ölkələrin yarımfinal bölgüsü ilə bağlı püşkatma atılıb. Püşkatmanın nəticəsinə görə, Azərbaycan təmsilçisi mayın 12-də, ikinci yarımfinalda səhnəyə çıxacaq. Birinci yarımfinal isə mayın 10-da baş tutacaq.

Hazırda müsabiqədə ölkəmizi təmsil edəcək mahnının seçimi üzrə qəbul davam edir.




Azərbaycanda "Eurovision"un rəsmi yayım hüququna sahib olan İctimai Televiziya və Radio Yayımları Şirkətindən verilən məlumata görə, mahnı seçimində iştirak etmək istəyənlər yanvarın 31-ə qədər öz mahnılarını song@eurovision.az elektron ünvanına göndərə bilərlər.

# "Qremmi" mərasiminin vaxtı və yeri bəllidir

Yanvarın 31-də Los-Ancelesdə keçirilməsi nəzərdə tutulan "Qremmi" mükafatlarının təqdimat mərasimi koronavirusun "omikron" ştammının sürətlə yayılmasına görə ertələnmişdi.

Tədbirin təşkilatçısı olan Amerika Səsyazma Şirkətləri Assosiasiyası "Qremmi" mükafatlarının təqdimatını bu il aprelin 3-də Las-Veqasda (Nevada ştatı) keçirəcək.

Məlumatda bildirilib ki, 64-cü "Qremmi" mərasimi Las-Veqasdakı "MGM Grand Garden"dən "CBS" telekanalı vasitəsilə tam formatda canlı yayımlanacaq. Mərasimin aparıcısı 2021-ci ildə olduğu kimi, komediya ustası, aktyor və teleaparıcı Trevor Noah olacaq. "MGM"in arenası 17 min nəfəri qəbul edə biləcək.

Ümumilikdə nominasiyalar üzrə 85 mükafat təqdim olunacaq, o cümlədən iki yeni mükafat əlavə edilib: etnik musiqi üzrə "Ən yaxşı musiqi ifası" və Latın Amerikası ifaçıları üçün "Ən yaxşı şəhər albomu".

"Qremmi" musiqi dünyasının ən nüfuzlu müsabiqəsi sayılır. Mükafat 1958-ci ildə Amerika Səsyazma Şirkətləri Assosiasiyası tərəfindən təsis edilib.

# Çindən Mərkəzi Asiya respublikalarına 500 milyon dollar yardım

## Diplomatik əlaqələrin 30 illiyi münasibətilə

Çin Xalq Respublikası (ÇXR) ilə beş Mərkəzi Asiya dövləti – Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə yüksək səviyyədə videokonfrans keçirilib.

ÇXR-in sədri Si Cinpin, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan prezidentləri Şavkat Mirziyoyev, Kasım-Jomart Tokayev, Sadır Japarov, Emomali Rahmon və Qurbanqulu Berdiməhəmmədovun onlayn görüşündə birgə bəyanat qəbul olunub.

Si Cinpin görüşdə bu ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən danışıb, yaxın 3 il ərzində beş Mərkəzi Asiya respublikasında iqtisadi və humanitar layihələrin həyata keçirilməsinə 500 milyon dollar təmənnasız yardım təklif edib. Çin rəhbəri deyib ki, bu proqram təhsil, elmi tədqiqat, səhiyyə sahəsində kadrların hazırlanması, kasıblığın aradan qaldırılması, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişafı və digər sahələri əhatə edəcək.

### ERKÜL PUARO ROLUNA GÖRƏ

# Devid Suşeyə "Cəngavər bakalavr" ordeni

Tanınmış britaniyalı aktyor Devid Suşe Aqata Kristinin məşhur romanının qəhrəmanı – detektiv Erkül Puaro obrazına görə cəngavər rütbəsi alıb. "Cəngavər bakalavr" ordeninin təqdimat mərasimi Vindzor qəsrində keçirilib.



Dramaturgiya və xeyriyyəçilik sahəsində xidmətlərinə görə aktyora ordeni Kembric hersoqu şahzadə Vilyam təqdim edib.

Suşe öz təəssüratlarını sosial şəbəkədə paylaşıb: "Kembric hersoqu bu gün Vindzor qəsrində məni cəngavər elan etdikdən sonra qürur hissi keçirir və bir qədər də sıxılıram".

Qeyd edək ki, britaniyalı aktyorun karyerası 1960-cı illərdə televiziya şouları və seriallarda görünməsi ilə başlayıb. Aktyor Aqata Kristinin əsəri əsasında çəkilən serialda (1989-2013) detektiv Erkül Puaro rolu ilə dünya şöhrəti qazanıb.

David Suşe Britaniya Kino və Televiziya Sənəti Akademiyasının üzvü və beş dəfə BAFTA mükafatına namizəd olub.

**Cavid**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 373 il əvvəl...

**30 yanvar 1649-cu ildə** İngiltərə Burjua inqilabı nəticəsində taxtdan salınan I Karl Stüart xüsusi olaraq təsis edilmiş Ali Məhkəmənin qərarı ilə edam olunub. İngiltərə respublika elan edilib, Lordlar Palatası qovulub. 1648-1649-cu illər İngiltərə inqilabı Avropanın siyasi tarixində mühüm mərhələ, kapitalizmə keçid oldu.

### 203 il əvvəl...

**1 fevral 1819-cu ildə** indiki Qırğızıstan ərazisi Rusiya imperiyasına birləşdirilib. 107 il sonra, 1926-cı ildə bu hadisənin ildönümü münasibətilə SSRİ rəhbərliyi Qazaxıstan SSR tərkibində Qırğızıstan Sovet Sosialist Muxtar Respublikasının yarandığını elan etdi. 1936-cı ildə Qırğızıstan SSR-ə çevrildi.

### 202 il əvvəl...

**29 yanvar 1820-ci ildə** Rusiyanın dəniz ekspedisiyası (Fridrix Bellinshauzen, Mixail Lazarev) Antarktidanı kəşf edib. Bu kəşf coğrafiya elmində mühüm yenilik oldu – dünyanın 5 deyil, 6 materikdən ibarət olduğu dəqiqləşdi. Yeni materik Rusiya imperiyasının nəzarətinə keçdi.

### 120 il əvvəl...

**31 yanvar 1902-ci ildə** Şamaxı şəhərində güclü zəlzələ böyük dağıntı və tələfat törədib. Şamaxıda və ətraf kəndlərdə 2 mindən çox sakin həlak olmuş, 20 min nəfərədək əhali evsiz qalmışdı. Azərbaycanın seysmik bölgələrindən olan Şamaxıda 1856, 1861 və 1872-ci illərdə də dağıdıcı zəlzələlər baş verib.



### 92 il əvvəl...

**1 fevral 1930-cu ildə** SSRİ Xalq Komissarları Soveti "Kütləvi kollektivləşmənin sürətləndirilməsi və qolçomaqlarla mübarizə haqqında" qərar qəbul edib. Genişmiqyaslı repressiya maşını işə düşüb. Kolxoz quruculuğuna qarşı çıxanlar ya məhv edilir, ya da sürgünə göndərilirdi.

### 89 il əvvəl...

**30 yanvar 1933-cü ildə** Almaniya parlamentində (Reyxstaq) sayca üçüncü fraksiyaya malik olan Nasional-Sosialist Partiyasının lideri Adolf Hitler Prezident Petr Qindenburq tərəfindən reyxskansler (Baş nazir) təyin olunub. Parlament çoxluğunun qurduğu koalisiya dağılandan sonra prezident bu addımı atmağa məcbur olmuşdu. Bu, Hitlerin hakimiyyətə gəlişi idi. Ölkədə real hakimiyyət kanslerə məxsus idi. Bir il sonra Qindenburq vəfat etdi və Hitler qanunla prezidentlik institutunu ləğv etdi. Almaniyada faşist diktaturası bərqərar olundu.

### 80 il əvvəl...

**29 yanvar 1942-ci ildə** SSRİ, Böyük Britaniya və İran arasında faşist Almaniyasına qarşı alyans barədə saziş imzalanıb. Sazişə əsasən, İran ərazisində – Cənubi Azərbaycanda SSRİ-nin hərbi kontingenti yerləşdirildi və müharibənin sonunadək (1945) sovet qoşunları orada qaldı.



### 73 il əvvəl...

**1 fevral 1949-cu ildə** Türkiyənin paytaxtı Ankarada Azərbaycan Kültür Dərnəyi təsis edilib. Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə yaradılan qurum dünyadakı azərbaycanlıların təşkilatlanması sahəsində ilk mühüm addım idi.

### 31 il əvvəl...

**29 yanvar 1991-ci ildə** Türkiyə ilə Azərbaycan arasında ilk hökumətlərarası əməkdaşlıq sazişi imzalanıb. Nəqliyyat sahəsində sazişə əsasən, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Araz çayı üzərində (o vaxt Türkiyə-SSRİ sərhədi) körpü tikilməli idi. "Ümid körpüsü"nün təntənəli açılışı 1992-ci il mayın 28-də keçirildi.



### 30 il əvvəl...

**30 yanvar 1992-ci ildə** Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (1994-cü ildən təşkilat statusu alıb və ATƏT adlanır) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirilib. Toplantıda Azərbaycan və Ermənistan ATƏM üzvlüyünə qəbul olunub. Təşkilat Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmaq üçün regiona missiya göndərmək barədə qərar qəbul edib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 276
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641